9 fevral 2022 №11 (1884) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## “Media haqqında” qanun qüvvəyə mindi

“Media haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. 2021-ci il 30 dekabr tarixində Milli Məclisdə qəbul olunan qanun Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanıb və fevralın 8-də rəsmi mətbuatda dərc olunub.

Prezident İlham Əliyev fevralın 8-də “Media haqqında” Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə fərman imzalayıb.

səh. 2

## Yerlərdəki mədəniyyət müəssisələri müasir çağırışlara cavab verməlidir

Xəbər verdiyimiz kimi, fevralın 3-də Gəncə şəhərinə səfər edən mədəniyyət naziri Anar Kərimov burada bir sıra mədəniyyət müəssisələrinə baş çəkib, onların fəaliyyəti ilə maraqlanıb.

Səfər çərçivəsində Anar Kərimov Nizami Gəncəvi Məqbərə Kompleksini ziyarət edib. Sonra Nizami Gəncəvi Muzeyinə baxış keçirən nazirə burada mütəfəkkir şairin həyat və fəaliyyəti ilə bağlı elektron məlumat köşkünün yaradılması barədə məlumat verilib. Nazir ziyarətçilərə göstərilən xidmət səviyyəsinin yüksəldilməsi, muzeyin yeni eksponatlarla zənginləşdirilməsi ilə bağlı tapşırıqlar verib.

Anar Kərimov Gəncə Dövlət Dram Teatrının bu günlərdə istifadəyə verilən yeni binası ilə də tanış olub. Bildirilib ki, son illər Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi qayğısı və diqqəti ilə respublikamızda onlarla yeni mədəniyyət müəssisəsi tikilib istifadəyə verilib. Bütün sahələrdə olduğu kimi, milli mədəniyyətimizin müxtəlif sahələrinin inkişafı, ölkəmizin mədəni irsinin qorunması və təbliği istiqamətində fəal işlər aparılır. O cümlədən regionlarda mədəni həyata xüsusi diqqət ayrılır, yeni mədəniyyət ocaqları tikilir, mövcud müəssisələr təmir olunur. Gəncə Dövlət Dram Teatrının yeni, möhtəşəm binası da ölkə başçısının müvafiq sərəncamına əsasən inşa edilib.

davamı səh. 4-də

## Mədəniyyət naziri “Daily Sabah” qəzetinə müsahibə verib

Mədəniyyət naziri Anar Kərimov Türkiyənin ingilis dilində nəşr olunan “Daily Sabah” qəzetinə müsahibə verib.

Müsahibədə ölkəmizdə mədəniyyət sahəsində həyata keçirilən mühüm layihə və yeniliklərdən bəhs edən Anar Kərimov 2020-ci ildə Azərbaycanın tarixi ərazisi olan Qarabağın işğaldan azad edilməsindən sonra başlanan quruculuq işləri, tarixi abidələrin bərpası barədə danışıb.

səh. 3

# “Şuşa İli”nin açılışı – ilin ilk kitabları

### “Məqsədimiz Şuşanın əvvəlki görkəmini və ruhunu özünə qaytarmaqdır”

Fevralın 7-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında “Şuşa İli”nin açılış tədbiri keçirildi. Tədbirdə Mədəniyyət Nazirliyinin Milli Kitabxana ilə birgə çap etdirdiyi “Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı” və “Xan Şuşinski. Biblioqrafiya” nəşrləri təqdim olundu.




Milli Kitabxananın direktoru Kərim Tahirov qonaqları salamlayaraq kitabxana tərəfindən hazırlanan “Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı” adlı biblioqrafiyanın Şuşaya həsr edilmiş ilk fundamental əsər olduğunu söylədi. Bildirdi ki, Şuşanın işğaldan azad olunması münasibətilə tərtib olunmuş biblioqrafiyada qədim şəhərimizin tarixi, mədəniyyəti, musiqisi və ədəbi mühiti, tarixi və memarlıq abidələri, ictimai-siyasi həyatı, görkəmli şəxsiyyətləri, habelə Prezident İlham Əliyevin Şuşaya səfərləri ilə bağlı kitablarda, dövri mətbuatda, məcmuələrdə çap olunmuş zəngin materiallar öz əksini tapıb. Kitabda xarici dillərdə Şuşa haqqında dərc olunan materiallar, həmçinin dünyanın milli və universitet kitabxanalarında mühafizə olunan ədəbiyyatlar ayrıca bölmələrdə verilib. Biblioqrafiya tarixçilər, politoloqlar, elmi tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Tədbirdə çıxış edən mədəniyyət naziri Anar Kərimov 2022-ci ilin çox əlamətdar olduğunu qeyd etdi: “Sevinirik ki, əsasının qoyulmasının 270 illiyini 28 il həsrəti ilə yaşadığımız Şuşanın özündə qeyd edirik. Şuşa Azərbaycanın ürəyi, iftixar mənbəyidir. Hazırda məqsəd və vəzifəmiz Şuşanın əvvəlki görkəmini və ruhunu özünə qaytarmaqdır. Buna görə tədbirlər planı hazırlanır. Sənəddə il ərzində keçiriləcək tədbirlər yer alacaq...”.

Nazir dedi ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin və şanlı Azərbaycan Ordusunun şücaəti sayəsində Şuşa arzumuz gerçəkləşib, mədəniyyət beşiyi olan şəhərimiz özümüzə qaytarılıb. Bu, böyük xoşbəxtlikdir ki, Şuşa öz mədəniyyətinə qovuşub. Ötən il Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edildikdən sonra burada genişmiqyaslı abadlıq işləri görülüb, bir sıra tarixi-mədəni abidələr bərpa olunub. Bununla yanaşı, “Xarıbülbül” musiqi festivalı, Vaqif Poeziya Günləri keçirilib. Üzeyir Hacıbəyli musiqi festivalı və Milli Musiqi Günü Şuşada qeyd edilib. Üzeyir bəyin Şuşada yenidən ucaldılan abidəsi önündə konsert proqramı təşkil olunub. Bu konsertlərdə Xan Şuşinskinin və Azərbaycanın digər görkəmli incəsənət xadimlərinin mahnıları səslənib.

davamı səh. 3-də

## Moskvada Azərbaycan kinosunun retrospektiv nümayişi başlayıb

Xəbər verdiyimiz kimi, 7-15 fevral tarixində Moskvadakı “İllüzion” kinoteatrında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə birgə layihə əsasında Azərbaycan kinosunun retrospektiv nümayişi keçirilir. Proqramda Azərbaycan kinosunun ötən əsrin 30-cu illərinə aid səssiz filmlərindən başlayaraq müxtəlif dövrlərdə, eləcə də sovet dövrünün son illərində çəkilmiş, həmçinin müasir rejissorların beynəlxalq festivallarda uğur qazanmış filmləri – ümumilikdə 19 ekran əsəri yer alıb.




Azərbaycan kinosunun retrospektivi rejissor Fariz Əhmədovun “Sonuncu” (2021) sənədli filminin nümayişi ilə açılıb.

Nümayişdən öncə “İllüzion” kinoteatrının art-direktoru Aleksandra Lavrova çıxış edərək bildirib ki, bu layihə müasir Rusiya tarixində Azərbaycan kinematoqrafiyasının miqyaslı retrospektividir: “Mən çox şadam ki, bu hadisə baş verdi. Biz bunu ötən ilin iyun ayında planlaşdırmışdıq. Əvvəl avqustda, daha sonra oktyabr, noyabrda keçirmək istəyirdik. Lakin pandemiya səbəbindən bir neçə dəfə təxirə salmalı olduq. Nəhayət, bu an gəlib çatdı. Ümid edirəm ki, bizim əməkdaşlığımız bununla bitməyəcək...”.

Mədəniyyət Nazirliyinin Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov 19 Azərbaycan filminin Moskvada nümayişini önəmli mədəniyyət hadisəsi adlandırıb: “Moskva kinosevərləri, həm də bizim həmkarlarımız bu filmlərə baxıb Azərbaycan kinematoqrafiyası ilə tanış ola bilər...”.

Rusiyadakı səfirliyimizin mədəniyyət attaşesi Nigar Axundova Moskvada Azərbaycan kinosu günlərinin açılışının ikitərəfli mədəni münasibətlərdə böyük hadisə olduğunu söyləyib, filmlərlə bağlı məlumat verib: “Bu retrospektiv proqramda həm yaşlı nəslin, həm orta, həm də gənc nəslin əsərləri nümayiş olunur. Bu bizim üçün çox vacibdir. Çünki mərhələli şəkildə kinematoqrafiyamızın inkişafını göstərmək niyyətindəyik”.

Qeyd edək ki, proqramda “Dəcəl dəstə” (1937, rejissorlar Qəmər Salamzadə, Aleksandr Popov), “Mavi dənizin sahilində” (1936, rejissor Boris Barnet), “Uzaq sahillərdə” (1958, Tofiq Tağızadə), “Sehrli xalat” (1964, Əlisəttar Atakişiyev), “Bir cənub şəhərində” (1969, Eldar Quliyev), “Şərikli çörək” (1969, Şamil Mahmudbəyov), “Bizim Cəbiş müəllim” (1969, Həsən Seyidbəyli), “İstintaq” (1979, Rasim Ocaqov), “Şeytan göz qabağında” (1987, Oktay Mir-Qasım), “Qətldən yeddi gün sonra” (1991, Rasim Ocaqov), “Yarasa” (1995, Ayaz Salayev), “Özgə vaxt” (1996, Hüseyn Mehdiyev), “Hər şey yaxşılığa doğru” (1997, Vaqif Mustafayev), “Balıqçının qızı” (2019, İsmayıl Səfərəli), “Duz, istiot zövqə görə” (2019, Teymur Hacıyev), “Səpələnmiş ölümlər arasında” (2020, Hilal Baydarov), “Axşama doğru” (2020, Teymur Hacıyev), “Daxildəki ada” (2020, Rüfət Həsənov) filmləri yer alıb.




## Ukraynada Yusif Vəzir Çəmənzəminlinin adı əbədiləşdirilib

Taras Şevçenko adına Kiyev Milli Universitetində Azərbaycan-Ukrayna diplomatik münasibətlərinin bərpasının 30 illiyi münasibətilə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ilk səfiri olmuş yazıçı Yusif Vəzir Çəmənzəminlinin adına böyük auditoriyanın və barelyefinin açılışı olub. Çəmənzəminli vaxtilə Kiyevdə ali təhsil alıb.

Açılış mərasimində Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundova, universitetin rektoru Volodimir Buqrov, Azərbaycanın sabiq xarici işlər naziri, səfir, Cümhuriyyət dövrünün araşdırmaçısı Vilayət Quliyev, Çəmənzəminlinin nəvəsi, Azərbaycan XİN-in şöbə rəisi Yusif Vəzirov, Ukraynanın xarici işlər və mədəniyyət nazirlərinin müavinləri Mikola Toçitskiy və Rostislav Karandeev, Ali Radanın deputatları iştirak ediblər.

davamı səh. 2-də

## UNESCO sessiyasında Şuşadakı “Xarıbülbül” musiqi festivalından danışılıb

Fevralın 8-də Parisdə UNESCO-nun Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında 2005-ci il Konvensiyasının Hökumətlərarası Komitəsinin 15-ci sessiyası onlayn formatda işə başlayıb. Sessiyada ölkəmizi Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyası, Mədəniyyət Nazirliyi və UNESCO yanında Daimi Nümayəndəliyi təmsil edir.



Sessiyada Hökumətlərarası Komitənin 2022-2023-cü illər üçün iş planına dair qərar qəbul olunacaq, dövri hesabatlar dinləniləcək, Beynəlxalq Mədəni Müxtəliflik Fonduna (İFCD) təqdim olunmuş yeni layihələrin maliyyələşdirilməsi təsdiqlənəcək. Hökumətlərarası Komitə İFCD-nin resurslarından istifadəyə dair təlimatların ilkin təftiş layihəsini, eləcə də mikro, kiçik və orta mədəniyyət və yaradıcı müəssisələrlə müntəzəm məsləhətləşmə mexanizminin yaradılması üçün texniki-iqtisadi əsaslandırma haqqında hesabatı da müzakirə edəcək. 2005-ci il Konvensiyasının həyata keçirilməsində vətəndaş cəmiyyəti ilə əməkdaşlığı gücləndirmək məsələsi də gündəlikdəki mövzular arasındadır.

Sessiyanın ilk günü ölkəmizin UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev də çıxış edib.

davamı səh. 3-də

## Ustad xanəndənin xatirə gecəsi

Fevralın 6-da Beynəlxalq Muğam Mərkəzində (BMM) Xalq artisti, ustad xanəndə Ağaxan Abdullayevin xatirəsinə həsr olunmuş tədbir keçirildi. “ASAN Könüllüləri” təşkilatının dəstəyi ilə gerçəkləşən gecədə görkəmli xanəndənin həyat və yaradıcılıq yoluna işıq salındı.

səh. 6

## Qarayevin musiqisi “Avropanın Mədəniyyət Paytaxtı”nda

Serbiyanın Novi Sad şəhərinin 2022-ci il “Avropanın Mədəniyyət Paytaxtı” seçilməsi münasibətilə hazırlanan beynəlxalq mədəni layihənin təqdimatı keçirilib. Beynəlxalq layihənin Azərbaycanın dahi bəstəkarı Qara Qarayevin musiqisi ilə açılması gecəyə xüsusi rəng qatıb.

səh. 8

## “Yeni gənclik” musiqi günlərinin son akkordları



səh. 5

## Alban irsinin monitorinqini aparacaq işçi qrupa xarici ekspertlər də cəlb olunub

səh. 2

## Xeyriyyə məqsədli “Sehrli palitra”



səh. 5

# “Media haqqında” qanun qüvvəyə mindi

“Media haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. 2021-ci il 30 dekabr tarixində Milli Məclisdə qəbul olunan qanun Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanıb və fevralın 8-də rəsmi mətbuatda (AZƏRTAC) dərc olunub.

Prezident İlham Əliyev fevralın 8-də “Media haqqında” Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə fərman imzalayıb.

Fərmanda “Media haqqında” qanunun qüvvəyə minməsi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabinetinə iki ay müddətində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin və Azərbaycan Respublikası Audiovizual Şurasının (bundan sonra – Şura) yaradılması ilə əlaqədar normativ hüquqi aktların uyğunlaşdırılması ilə bağlı təkliflərini, “Media haqqında” qanunun pozulmasına görə inzibati məsuliyyəti müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

Nazirlər Kabineti həmçinin üç ay müddətində qanunun 30.1-ci maddəsində (yayım funksiyası daşıyan audiovizual yayımçı ilə bağlı) və 59.2-ci maddəsində (çap mediası subyektinin təsisçisi ola biləcək dövlət orqanları ilə bağlı) nəzərdə tutulmuş siyahıya dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Bundan əlavə, Nazirlər Kabineti qanunun 73.6-cı maddəsinə uyğun olaraq, Media Reyestrinin aparılması qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli, 29.4-cü və 33.5-ci maddələrdə nəzərdə tutulmuş xidmət haqlarının məbləğini, eləcə də 70.1-ci maddəyə uyğun olaraq, jurnalist vəsiqəsinin formasını, onun verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləğini və həmin vəsaitdən istifadə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etməlidir.

Nazirlər Kabineti qanunun 73.8-ci maddəsinə uyğun olaraq, Media Reyestri şəhadətnaməsinin formasını da təsdiq etməli və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi qanunun 73.1-ci maddəsinə uyğun olaraq, Media Reyestrinin yaradılmasını Azərbaycan Respublikasının 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları” nəzərə alınmaqla altı ay müddətində təmin etməli və həmin bazanın Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə zəruri tədbirlər görməlidir.

Fərmanda qeyd olunur ki, qanunda nəzərdə tutulan Azərbaycan Respublikası Audiovizual Şurası Milli Televiziya və Radio Şurasının hüquqi varisidir, onun öhdəlikləri və əmlakı yeni şuraya keçir. Milli Televiziya və Radio Şurasının səlahiyyət müddəti bitməmiş üzvləri həmin müddət bitənədək fəaliyyətlərini davam etdirirlər.

Nazirlər Kabineti Şuranın inzibati bina ilə təmin edilməsi və maddi-texniki təminatı məsələlərini bir ay müddətində həll etməlidir.

# Azərbaycan tarixi-mədəni irslə bağlı dini-etnik zəmində ayrı-seçkilik etmir

## Alban irsinin monitorinqini aparacaq işçi qrupa xarici ekspertlər də cəlb olunub

Azərbaycan tarixi-mədəni irsinə onun dini-etnik mənşəyindən asılı olmayaraq hər zaman hörmətlə yanaşıb. Bu yanaşma, eyni zamanda işğaldan azad edilmiş ərazilərimizdə yerləşən tarixi-mədəni irsə münasibətdə də sərgilənir.

Bu sözlər son günlər bir sıra xarici kütləvi informasiya vasitələri tərəfindən ölkəmizin işğaldan azad edilmiş ərazilərindəki mədəni irs mövzusunda yayılan qərəzli xəbərlərlə bağlı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin məlumatında diqqətə çatdırılır.

Vurğulanır ki, işğaldan azad edilmiş ərazilərimizdəki tarixi-dini abidələr Azərbaycan irsinə aiddir, onların qorunması Azərbaycan dövlətinin öhdəliyidir və bu, Azərbaycan rəsmiləri tərəfindən dəfələrlə bəyan edilib. Buna əyani sübut olaraq Şuşada başlamış genişmiqyaslı bərpa-quruculuq prosesinin məscidlərlə yanaşı, iki xristian kilsəsini də əhatə etməsini göstərmək olar: “Azərbaycan, Ermənistandan fərqli olaraq, tarixi-mədəni irsinə dini və etnik zəmində ayrı-seçkilik etmir və Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyası da daxil olmaqla, beynəlxalq konvensiyalar üzrə öhdəliklərinə sadiqdir”.

Həmçinin qeyd olunur ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən hal-hazırda işğaldan azad edilmiş ərazilərdə müvafiq monitorinq aparılır.

“İşğaldan azad edilmiş ərazilərdə qədim alban irsinə gəldikdə, qeyd etmək lazımdır ki, bu irsin tədqiqi ilə bağlı işçi qrup təsis edilmişdir. İşçi qrupa həm yerli, həm də xarici ekspertlər cəlb olunub və yerində təhlükəsizlik vəziyyəti imkan verəcəyi təqdirdə, işçi qrupun üzvləri bu xristian irsinin monitorinqini həyata keçirib onu tədqiq edəcəklər. Saxtakarlıq aşkar ediləcəyi təqdirdə beynəlxalq ekspertlərin iştirakı ilə bu pozuntular sənədləşdirilərək beynəlxalq ictimaiyyətə təqdim ediləcək. Xatırlatmaq istərdik ki, tarixi-mədəni irs üzərində dəyişikliklər edilməsi və onun mənşəyinin dəyişdirilməsi 1954-cü il Haaqa Konvensiyasının müddəalarına ziddir”, – deyə məlumatda bildirilir.

# Regionda davamlı sülh Avropanın da marağındadır

## Avropa İttifaqı Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması üçün səylərini artırır

Fevralın 4-də Fransa Respublikasının Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda görüş keçirilib.



Əvvəlcə Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın hökumət başçısı Nikol Paşinyanın iştirakı ilə 2021-ci il dekabrın 14-də Brüsseldə keçirilmiş birgə görüşün əhəmiyyəti vurğulanıb.

Sonra Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasına dair ətraflı müzakirələr keçirilib. Bu xüsusda, tədbirin əvvəlcədən müəyyən edilmiş gündəliyinə uyğun olaraq, iki ölkə arasında münasibətlərin müxtəlif aspektləri, o cümlədən humanitar məsələlər, etimad quruculuğu, Azərbaycanın üzləşdiyi mina problemi, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, sülh sazişi üzrə danışıqların başlanması kimi məsələlərə dair fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev müzakirə olunan məsələlər barədə Azərbaycanın mövqeyini bir daha vurğulayıb.

Müzakirələr zamanı Prezident İlham Əliyev Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyinin, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstəyin artırılması, dəmiryolu və avtomobil yolu ilə nəqliyyat dəhlizinin açılması məsələlərini xüsusi qeyd edib. Dövlət başçısı Birinci Qarabağ müharibəsi zamanı 71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla, ümumilikdə 3890 Azərbaycan vətəndaşının itkin düşməsini diqqətə çatdırıb.

Qeyd edilib ki, 2020-ci ildə 44 günlük müharibə başa çatandan bəri mina partlayışı nəticəsində 36 nəfər Azərbaycan vətəndaşı həlak olub, 165 nəfər yaralanıb.

Görüşdə həmçinin UNESCO-nun Azərbaycana və Ermənistana missiyası məsələsi də müzakirə olunub və missiyanın hər iki ölkəyə göndərilməsinə dair razılıq ifadə edilib.

***

Videokonfrans rejimində dördtərəfli görüş Azərbaycanın regionda davamlı sülh və istiqrarın bərqərar olunması istiqamətində ardıcıl səy göstərdiyini, eyni zamanda Avropa İttifaqının bu istiqamətdə fəallığını artırdığını nümayiş etdirir. Fransa rəhbərliyinin də axır vaxtlar bu prosesə aktiv qoşulması rəsmi Parisin 44 günlük müharibə zamanı və sonrakı aylarda nümayiş etdirdiyi aşkar qərəzli siyasətdən artıq daha realist siyasətə keçmək niyyətini göstərir. İndi qalır bu xüsusda Ermənistan tərəfin gerçək sülh və istiqrara nə dərəcədə meyli olduğunu nümayiş etdirməsi.

Qeyd edək ki, Azərbaycan bu istiqamətdə daha bir humanist addım ataraq, 7 fevral 2022-ci il tarixdə 8 nəfər erməni əsilli hərbi qulluqçunu Ermənistan tərəfinə qaytarıb.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından verilən məlumata görə, həmin şəxslərin bir qismi 2021-ci ilin 16 noyabr tarixində Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində törətdiyi təxribatın qarşısı alınarkən saxlanılan hərbi qulluqçulardır.

Azərbaycan tərəfinin humanitar xarakterli bu addımının əvəzində Ermənistan tərəfi də Birinci Qarabağ müharibəsində öldürülmüş və kütləvi məzarlıqlarda basdırılması ehtimal edilən hərbi və mülki Azərbaycan vətəndaşları haqqında məlumatları, habelə bu qəbildən olan kütləvi məzarlıqların yerləri barədə məlumatı Azərbaycan tərəfinə verməlidir.

***

Azərbaycanın 8 erməni hərbçini Ermənistana təhvil verməsi Azərbaycan Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Makron və Ermənistan baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdən sonra müsbət irəliləyişlərin daha bir göstəricisidir.

Bu barədə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel özünün “Twitter” hesabında paylaşımında bildirib.

Şarl Mişel Avropa İttifaqının regionda sabitliyi və rifahı dəstəklədiyini bir daha vurğulayıb.

***

Yeri gəlmişkən, Rusiya və Fransa prezidentləri Vladimir Putin və Emmanuel Makronun fevralın 7-də Kremldə keçirilmiş görüşündə Qarabağla bağlı da müzakirələr aparılıb.

Bunu Vladimir Putin danışıqlarının yekunlarına dair birgə mətbuat konfransında deyib.

Görüşdən sonra təşkil olunmuş mətbuat konfransında Rusiya rəhbəri bildirib ki, fransalı həmkarı ilə Qarabağ ətrafında vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb, atəşkəsə nəzarət edən və dinc həyatın nizama salınmasını təmin edən sülhməramlıların müsbət rolu qeyd olunub. Tərəflər ATƏT-in Minsk qrupunun regionun sosial-iqtisadi problemlərinin həllində əhəmiyyətli rolunu qeyd ediblər.

Rusiya rəhbəri qeyd edib ki, Fransa Prezidenti fevralın 4-də Azərbaycan və Ermənistan rəhbərləri ilə keçirilən videokonfrans barədə də məlumat verib.

Emmanuel Makron öz növbəsində Rusiya sülhməramlı kontingentinin Qarabağ ətrafında vəziyyətin sabitləşməsində rolunu vurğulayıb.

# Ermənistan XİN-ə cavab

## “Humanitar hüquq normalarına hörmətsizlik etməyin”

Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibinin erməni əsilli 8 hərbi qulluqçunun qaytarılması müqabilində Birinci Ermənistan-Azərbaycan müharibəsində itkin düşmüş vətəndaşlarımız və onların basdırıldıqları kütləvi məzarlıqların yerləri barədə məlumatların Azərbaycan tərəfinə verilməsi ilə bağlı rəsmi Yerevanın öz üzərinə öhdəlik götürməməsinə dair açıqlaması beynəlxalq humanitar hüquqa və humanizm prinsipinə hörmətsizliyin ən ifrat nümunəsi kimi qiymətləndirilməlidir.



Bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin açıqlamasında bildirilir. Xatırladaq ki, Ermənistan XİN rəsmisi bu barədə fevralın 7-də açıqlama verib.

“Ermənistan Xarici İşlər Nazirliyinə xatırladırıq ki, 1949-cu il Cenevrə Konvensiyası və onun müvafiq protokolları, bütövlükdə beynəlxalq humanitar hüquq normaları ilə üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq, Ermənistan tərəfi sözügedən dövlətin silahlı qüvvələri tərəfindən sistemli surətdə qətlə yetirilən mülki və hərbi Azərbaycan vətəndaşlarının və onların kütləvi şəkildə basdırıldıqları məzarlıqların yerləri barədə məlumatları Azərbaycan tərəfinə təqdim etməyə borcludur.

Bir daha vurğulamaq istərdik ki, bu il fevralın 4-də Fransa Respublikası Prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilmiş görüşün gündəliyində duran əsas məsələlərdən biri məhz humanitar məsələlər olub”, – deyə Azərbaycan XİN-in mətbuat üçün açıqlamasında vurğulanır.

Həmçinin qeyd olunur ki, Azərbaycan tərəfinin atdığı humanist addımların nəticəsi olaraq 44 günlük müharibədən sonra 1708 erməni hərbi qulluqçunun cəsədi tapılaraq qarşı tərəfə təhvil verilib. Bunun müqabilində Ermənistanın inkarçılıq siyasətini davam etdirməsi, beynəlxalq humanitar hüquq əsasında, həmçinin 2022-ci il fevralın 4-də videoformatda keçirilmiş görüş zamanı üzərinə götürdüyü öhdəlikləri inkar etməsi mənəvi-etik və beynəlxalq hüquqi çərçivələrdən tamamilə kənara çıxır.

“Biz beynəlxalq ictimaiyyəti Ermənistan tərəfinə təzyiq göstərərək Birinci Ermənistan-Azərbaycan müharibəsinin qanlı irsi olan itkin düşmüş Azərbaycan vətəndaşlarının taleyinə aydınlıq gətirməkdə məsuliyyətli davranmağa və öz öhdəliklərinə əməl etməsini tələb etməyə çağırırıq.

Qeyd olunmalıdır ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən itkin düşmüş şəxslərin ailə üzvlərindən alınan DNT nümunələri əsasında 3000-dən artıq insanın DNT bazası yaradılıb.

Ermənistan tərəfindən veriləcək məlumatlar əsasında kütləvi məzarlıqlardan çıxarılacaq qalıqlar nəticəsində 30 ilə yaxın müddətdə barələrində heç bir məlumat verilməyən, itkin düşmüş Azərbaycan vətəndaşlarının taleyinə aydınlıq gətirilə bilər”, – deyə Azərbaycan XİN bəyan edib.

# Ukraynada Yusif Vəzir Çəmənzəminlinin adı əbədiləşdirilib



*əvvəli səh. 1-də*

Elmira Axundova bildirib ki, Çəmənzəminli burada təkcə diplomat kimi çalışmayıb, o, həmçinin ictimai və ədəbi fəaliyyəti ilə də Ukraynada aktiv olub. Səfir bu açılışın Azərbaycanla Ukrayna arasında diplomatik əlaqələrin bərpasının 30 illiyi ərəfəsinə təsadüf etdiyini xatırladaraq ötən müddətdə müstəqil ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafından danışıb.

Universitetin rektoru V.Buqrov bildirib ki, Çəmənzəminli kimi tarixi şəxsiyyətin onların məzunu olması nə qədər şərəfdirsə, bugünkü barelyefin açılışı da o qədər qürurvericidir. O, universitetlərində barelyefin ilk dəfə açıldığını bildirib.

Ukrayna xarici işlər nazirinin müavini Mikola Toçitskiy isə Azərbaycan ilə Ukrayna arasında müstəqil tarixi əlaqələrin 100 il əvvələ gedib çıxmasını iki ölkə arasında dostluğun tarixiliyinin bariz nümunəsi olduğunu bildirib. O qeyd edib ki, fevralın 6-da 30 ili tamam olan Azərbaycan-Ukrayna diplomatik əlaqələrinin bərpası iki ölkə arasında münasibətlərin uğurlu tarixlərindəndir. Nazir müavini qeyd edib ki, ikitərəfli münasibətlər prezidentlər İlham Əliyev və Volodimir Zelenski tərəfindən olduqca dinamik və məhsuldar formada inkişaf etdirilir.

Azərbaycanın sabiq xarici işlər naziri Vilayət Quliyev çıxışında Çəmənzəminlinin fəaliyyətindən, Ukrayna tarixində onun rolundan bəhs edib.

Auditoriyada Azərbaycan atributları ilə yanaşı, Çəmənzəminliyə aid tarixi eksponatlar da yerləşdirilib.

Yazıçının nəvəsi Yusif Vəzirov babasının yaşadığı günlərdən yadigar qalan və Bakıdan gətirdiyi kilim və armudu stəkanı da auditoriyaya təhvil verib.



Sonra universitetin akt zalında Yusif Vəzir Çəmənzəminlinin Kiyevdəki təhsil həyatından bəhs edən “Studentlər” avtobioqrafik romanının təqdimatı olub.

Qeyd edək ki, yanvarın 21-də Taras Şevçenko adına Kiyev Milli Universitetinin rektoru Vladimir Buqrov və Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundova bu ali təhsil ocağında azərbaycanlı dövlət xadimi və yazıçı Yusif Vəzir Çəmənzəminli adına auditoriyanın yaradılmasına dair anlaşma memorandumu imzalayıblar. Memoranduma əsasən, universitetin Hüquq fakültəsinin 243 saylı auditoriyasına Yusif Vəzir Çəmənzəminlinin adı verilib. Auditoriya səfirliyin maliyyə dəstəyi ilə təmir olunub.

Yusif Vəzir Çəmənzəminlinin arxivindən əlyazmaların, diplom və sənədlərin surətləri, şəkilləri auditoriyaya təqdim olunub. Auditoriyada həmçinin müasir müstəqil Azərbaycana, ümummilli lider Heydər Əliyevə və Prezident İlham Əliyevə aid guşə də yaradılıb. Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan Respublikasının xəritələri, Qarabağ xalçası da auditoriyada yer alıb.

Auditoriyanın girişində qoyulan Yusif Vəzir Çəmənzəminlinin barelyefinin müəllifi Ukraynanın Xalq rəssamı, soydaşımız Katib Məmmədovdur.

# "Şuşa İli"nin açılışı – ilin ilk kitabları

## "Məqsədimiz Şuşanın əvvəlki görkəmini və ruhunu özünə qaytarmaqdır"



*əvvəli səh. 1-də*

Dövlət başçısının sərəncamı ilə 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan edilməsini yüksək qiymətləndirən nazir əlamətdar ilin qədim şəhərimizin tarixi və zəngin mədəni irsinin təbliği baxımından böyük əhəmiyyət daşıdığını vurğuladı. "Şuşa İli" tədbirlərinə, maarifləndirmə işlərinə Milli Kitabxanadan başlandığını bildirən Anar Kərimov ötən ildən həyata keçirilən "Qarabağa kitabla gedək" layihəsi barədə də söz açdı. Bildirdi ki, işğaldan azad olunmuş ərazilərimizdə bərpa olunacaq kitabxanaların fondları üçün nəzərdə tutulan layihə üzrə 60 mindən çox kitab toplanıb. Bu istiqamətdə işlər davam etdiriləcək və il ərzində Şuşada çoxsaylı tədbirlər keçiriləcək.

Təqdimatda çıxış edən Milli Məclisin deputatı, akademik Nizami Cəfərov Şuşanın ədəbi-mədəni mühiti ilə bağlı fikirlərini bölüşdü: "Şuşa deyəndə mütləq muğam yada düşür. Şuşada yaranan muğam əsl Azərbaycan muğamıdır. Bu, təkcə muğamın deyil, Azərbaycanın inkişafıdır. Şuşa həm də yeni Azərbaycan poeziyasının vətənidir. Molla Pənah Vaqif yeni dövr ədəbiyyatımızın ən parlaq nümayəndəsidir. Vaqifin dili müasir Azərbaycan dili deməkdir...".

Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva şuşalıların 30 il bu şəhərin həsrətini çəkdiyini, ancaq heç zaman ümidlərini itirmədiyini söylədi. Qələbəyə, azad Şuşaya görə Azərbaycan xalqının hər zaman şəhidlərimizə, qazilərimizə və Prezident İlham Əliyevə minnətdar olacaqlarını dilə gətirdi. V.Fətəliyeva həmçinin Qarabağ xanı İbrahimxəlil xanın Şuşada tikdirdiyi kitabxananın bölgədə ən zəngin kitabxana olduğunu, Şuşanın mədəniyyət və incəsənət xadimlərinin yetişməsində də bu elm ocağının əhəmiyyətli rolundan söz açdı.

"Xan Şuşinski. Biblioqrafiya" nəşrinin ön söz müəllifi, Xalq artisti Sərdar Fərəcov muğam sənətimizdə iz qoyan sənətkarlardan bəhs etdi. Dedi ki, Azərbaycan muğamının gözəlliyi, möhtəşəmliyi haqqında söz açılanda onun görkəmli ifaçıları yada düşür: "Bu ifaçılar arasında elə xanəndələr olub ki, onların oxuduqları muğam onların adları ilə qoşa çəkilib. Məsələn, "Zabul Qasım", "Segah İslam" və ya şəkili Ələsgərin "Rəhabı", Məşədi Məmməd Fərzəliyevin "Şüştər"i, Seyid Şuşinskinin "Çahargah"ı və sair. Lakin elə xanəndələr də olub ki, onların ifasında bir yox, iki yox, bəlkə də bütün muğamlar və bu muğamların şöbələri ən xırda detalları ilə səslənib, dinləyicilərin ürəklərini fəth edib. Belə xanəndələrdən biri də Xalq artisti Xan Şuşinski idi. O, hələ sağlığında Azərbaycan xalqının ən sevimli sənətkarı olub, adı əfsanələşib, dillərə düşüb, muğam kimi qədim bir sənətin rəmzinə çevrilib. Bu kitabla yaxından tanış olduqca görürük ki, dahi şəxsiyyətlərin həyatı heç də adi olmayıb. Onların ömrü sonradan dastana çevrilib...".



Xan Şuşinskinin qızı, muğam ustadının adını daşıyan fondun rəhbəri Bəyimxanım Cavanşirova-Verdiyeva layihənin əhəmiyyətindən söz açaraq ailəsi adından təşəkkürünü bildirdi: "Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Qarabağ torpaqlarını bizə qaytararaq adını dövlətçilik tariximizə əbədi yazdıran Prezident İlham Əliyev Şuşa şəhərini ölkəmizin mədəniyyət paytaxtı, daha sonra 2022-ci ili "Şuşa İli" elan etməklə elə bil dünyanı bizə bağışladı. O, bununla ulu öndərin vəsiyyətini yerinə yetirdi, bir övlad kimi onun qoyduğu yolu davam etdirdi. Prezident bu ili "Şuşa İli" adlandırmaqla beynəlxalq miqyasda sübut etdi ki, həqiqətən də, Şuşa tarixi, əzəli-əbədi Azərbaycan şəhəridir".

Tədbirin sonunda iştirakçılar Milli Kitabxana tərəfindən hazırlanmış "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı" adlı kitab sərgisi ilə tanış oldular.

**Lalə Azəri**

# UNESCO sessiyasında Şuşadakı "Xarıbülbül" musiqi festivalından danışılıb

*əvvəli səh. 1-də*

Daimi nümayəndə BMT Baş Assambleyasının 74-cü sessiyasında 2021-ci ilin "Dayanıqlı İnkişaf üçün Beynəlxalq Yaradıcı İqtisadiyyat İli" elan edildiyini xatırladaraq ölkəmizdə bu sahədə görülən işlərdən söz açıb.

Bildirib ki, "Davamlı İnkişaf üçün Beynəlxalq Yaradıcı İqtisadiyyat İli" COVİD-19 pandemiyasının yaradıcı iqtisadiyyatı iflic etdiyi vaxta təsadüf edib. Bu böhran bütün dünyada mədəniyyət sektorunda mövcud zəiflikləri üzə çıxardı və yaradıcılığın hər kəs üçün, xüsusən də rifahımız üçün nə qədər vacib olduğunu bir daha təsdiqlədi.

Azərbaycan yaradıcı sektoruna COVİD-19 pandemiyasının təsirindən bəhs edən Elman Abdullayev ölkə başçısının müvafiq sərəncamı ilə 2021-ci ildə elan edilmiş "Azərbaycan – 2030: sosial-iqtisadi inkişafına dair Milli Prioritetlər" barədə məlumat verib. Bildirib ki, yaradıcı sənayeni dəstəkləmək və bu sahədə iqtisadi artımı təmin etmək üçün "İqtisadi artım" prioriteti çərçivəsində "Mədəniyyətin və yaradıcı sənayenin dinamik inkişafı və bu sahədə ixrac potensialının gücləndirilməsi"nə dair məqsədlər də müəyyən edilib.

Daimi nümayəndə 2021-ci ildə Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının yaradıldığını da diqqətə çatdırıb. Bildirib ki, federasiya ölkəmizdə bu sahənin inkişafı üçün zəruri olan münbit ekosistemi dəstəkləməklə maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, yaradıcı məhsul və xidmətlərin istehsalı və ixracının təşviqi, yaradıcılıq sənayesi sahəsində ictimai təşkilatlarla iş, habelə 2019-cu il "Kreativ Azərbaycan" portalında yaradılmış müxtəlif fəaliyyətləri idarə edir.



Azərbaycanın Lənkəran şəhərinin "qastronomiya" nominasiyası üzrə UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil edildiyini deyən E.Abdullayev bunun Azərbaycan, eləcə də UNESCO üçün regionumuzun zəngin mədəniyyətinin və mətbəxinin kəşf edilməsində növbəti uğur olduğunu bildirib.

Daimi nümayəndə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada otuzillik fasilədən sonra 2021-ci ildə ilk dəfə təşkil olunan "Xarıbülbül" musiqi festivalı barədə də danışıb. Qeyd edib ki, Şuşanın işğaldan azad edilməsindən sonra ilk möhtəşəm tədbir olan festival ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi kollektivlərini bir araya gətirib, festivalda Azərbaycan mədəni müxtəlifliyinin əsl mahiyyətini əks etdirən xalq və klassik musiqi proqramı təqdim edilib.

E.Abdullayev çıxışında 2021-ci ilin oktyabr ayında Bakı Ekspo Mərkəzində "Qarabağın bərpası, yenidən qurulması və inkişafı – Qarabağı yenidən qur" adlı beynəlxalq sərgidən də söz açıb. Sərginin "İşğal olunmuş ərazilərdə iqtisadi, investisiya və turizm potensialı və "Rəqəmsal iqtisadiyyat" kimi mövzulara, Qarabağda həyata keçirilməsi təklif olunan layihələrə, Azərbaycanda "yaşıl enerji"nin inkişafı imkanlarına həsr olunduğu qeyd edilib. Sərgi çərçivəsində Azərbaycan Mədəniyyət Nazirliyinin "Mədəniyyət üçün sülh" (Peace4Culture) qlobal kampaniyasına həsr olunmuş panel sessiyasının keçirildiyi də diqqətə çatdırılıb.

Sessiya iştirakçılarına Azərbaycan Prezidentinin "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasının hazırlanması ilə bağlı sərəncamı haqqında da məlumat verilib.

Çıxışın sonunda daimi nümayəndə Azərbaycan və UNESCO əlaqələrinə toxunaraq, 2022-ci ildə bu əlaqələrin 30 illiyinin tamam olduğunu bildirib. Vurğulanıb ki, bu illər ərzində UNESCO ilə möhkəm və davamlı tərəfdaşlıq və qurumun səlahiyyətlərinin müxtəlif sahələrdə dəstəklənməsi ölkəmiz üçün prioritet olub. Azərbaycan qurumun bir çox mühüm tədbirlərinə ev sahibliyi edib, Afrika Prioriteti, gender bərabərliyi və təhsil kimi sektorlarda mədəni müxtəliflik və mədəniyyətlərarası dialoq üzrə müxtəlif layihələr həyata keçirib.

Xatırladaq ki, Azərbaycan UNESCO-nun Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında 2005-ci il Konvensiyasının Hökumətlərarası Komitəsinin üzvüdür. Hökumətlərarası Komitənin 15-ci sessiyası fevralın 11-dək davam edəcək.

# "Böyük Qayıdış"ın qaliblərindən

## "Qarabağ nağılı" animasiya filmi çəkiləcək

Rejissor və prodüser Firəngiz Qurbanovanın rəhbərlik etdiyi "Birlik" animasiya studiyasının "Qarabağ nağılı" layihəsi 2021-ci ildə Mədəniyyət Nazirliyi tərəfindən keçirilən "Böyük Qayıdış" müsabiqəsinin qalibi olub. Müsabiqənin şərtlərinə görə, animasiya filmi nazirliyin maliyyə dəstəyi ilə çəkiləcək.

Film "Mənə nağıl söylə" adlı animasiya serialının ikinci hissəsidir. "Araqçın" adlı birinci film 2020-ci ildə çəkilib və festivallarda uğurla nümayiş olunub.

Qeyd edək ki, "Birlik" animasiya studiyası 2021-ci ildə Azərbaycan Kinematoqrafçılar İttifaqı ilə birlikdə "Sərçə" filmini də çəkib. Film rejissor Gülnar Əliyevanın diplom işidir.

# "DANIŞIR ŞUŞA"

## Radiolayihə hər həftənin cümə günü yayımlanacaq

Mədəniyyət Nazirliyi, nazirlik yanında Mədəni İrsin Qorunması, Bərpası və İnkişafı üzrə Dövlət Xidməti, "AzerNyuMedia" şirkəti və "Avto FM"in birgə layihəsi olan "Danışır Şuşa" radio proqramı növbəti həftədən efirə çıxacaq.

Layihə hər həftənin cümə günü "Avto FM" (107.7) radiosunun efirində yayımlanacaq. İlk buraxılış isə 18 fevralda efirə gedəcək.

Layihə Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın tarixinə, mədəniyyətinə, adət-ənənələrinə, mətbəxinə, bu şəhərdə dünyaya göz açmış və onunla əbədi bağlılığı olan şəxsiyyətlərə həsr olunacaq.

Layihədə əsas məqamlardan biri Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, Bərpası və İnkişafı üzrə Dövlət Xidmətinin Qarabağda, xüsusilə Şuşada apardığı mədəni monitorinqlər barədə məlumatların təqdim edilməsidir.




"Danışır Şuşa" layihəsinin hər buraxılışı beş bölmədən: "Şuşa kimi tarix", "Şuşa tərzi", "Qafqaz mirvarisi", "Zəfər yolu", "Unutma" rubrikalarından ibarətdir.

Layihənin rəhbəri Kamran Qasımov, aparıcısı RJ Yaqut, səs supervayzeri Yaşar Baxış, məsləhətçisi tarixçi Elçin Əhmədovdur.

# Anar Kərimov Xalq artisti Əlibaba Məmmədovu evində ziyarət edib

Mədəniyyət naziri Anar Kərimov bu günlərdə 92 yaşını qeyd edən Xalq artisti, "Şöhrət", "İstiqlal" və "Şərəf" ordenli xanəndə Əlibaba Məmmədovu evində ziyarət edib.



Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi Əlibaba Məmmədovu doğum günü münasibətilə təbrik edən Anar Kərimov onun Azərbaycan incəsənətində xüsusi rolunu vurğulayıb. Nazir ustad xanəndənin bənzərsiz ifası ilə yanaşı, müəllifi olduğu mahnıların dillər əzbərinə çevrildiyini deyib. Əlibaba Məmmədovun yetişdirdiyi tələbələrin bu gün də Azərbaycan muğam sənətinin gələcək nəsillərə ötürülməsində iştirak etdiyini vurğulayan nazir sənətkara möhkəm cansağlığı arzulayıb.

Xalq artisti Əlibaba Balaəhməd oğlu Məmmədov 5 fevral 1930-cu ildə Bakının Maştağa kəndində doğulub. Sənətkar milli muğam sənətinin inkişafına dəyərli töhfələr verib, mahnı və təsniflər bəstələyib.

Əlibaba Məmmədovun ən məşhur bəstələrindən biri Hüseyn Arifin sözlərinə yazdığı "Yaşa hələ..." mahnısıdır.

*İlləri yola salmışam,*
*Mahnı qoşub, saz çalmışam.*
*Ömür deyir qocalmışam,*
*Ürək deyir yaşa hələ...*

# Mədəniyyət naziri "Daily Sabah" qəzetinə müsahibə verib

Mədəniyyət naziri Anar Kərimov Türkiyənin ingilis dilində nəşr olunan "Daily Sabah" qəzetinə müsahibə verib.



Müsahibədə ölkəmizdə mədəniyyət sahəsində həyata keçirilən mühüm layihə və yeniliklərdən bəhs edən Anar Kərimov 2020-ci ildə Azərbaycanın tarixi ərazisi olan Qarabağın işğaldan azad edilməsindən sonra başlanan quruculuq işləri, tarixi abidələrin bərpası barədə danışıb.

Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa İli" elan etməsinin əhəmiyyətini xüsusi vurğulayan Anar Kərimov bu xüsusda Mədəniyyət Nazirliyinin üzərinə düşən şərəfli və vacib öhdəliklərdən də söz açıb.

Nazir müsahibədə Azərbaycan mədəniyyətinin incisi sayılan Şuşa haqqında danışaraq, bu il 270 yaşını qeyd edəcək şəhərin tarixi-mədəni irsi ilə yanaşı, səfalı iqlimi, füsunkar təbiəti ilə də tanındığını bildirib, Şuşanın tarixi keçmişi haqda geniş məlumat verib.

Anar Kərimov həmçinin 44 günlük Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfərdən, qardaş Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstəyinin önəmindən danışıb. Azərbaycan və Türkiyə dövlət başçılarının 2021-ci ilin 15 iyununda Şuşa şəhərində imzaladıqları tarixi bəyannamənin ölkələrimiz arasında münasibətlərə müstəsna töhfə olduğu vurğulanıb.

Nazir müsahibənin sonunda Azərbaycan və Türkiyənin kino sahəsində əməkdaşlığı, nəzərdə tutulan birgə layihələrdən də söz açıb, 2021-ci ildə ilk dəfə İstanbulda gerçəkləşən "Dədə Qorqud" Türk Dünyası Film Festivalını 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olacaq Şuşada təşkil etmək istədiyimizi diqqətə çatdırıb.

# Qətərli nazirə "Nizami Gəncəvi – 880" xatirə nişanı təqdim olunub

Qətərin dövlət naziri, Qətər Milli Kitabxanasının rəhbəri, professor Həməd bin Əbdüləziz əl-Kavari Nizami Gəncəvi irsinin təbliğində və tanıdılmasında xidmətlərinə görə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən təsis olunmuş "Nizami Gəncəvinin 880 illiyi (1141-2021) xatirə nişanı" ilə təltif edilib.



Azərbaycan Respublikasının Qətər Dövlətindəki səfiri Rəşad İsmayılov xatirə nişanını nazirə təqdim edib.

Qətərin dövlət naziri Azərbaycan Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirib. O əlavə edib ki, ötən ay keçirilən Doha Beynəlxalq Kitab Sərgisində məşhur rus şərqşünası Y.Bertelsin "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" kitabının ərəb dilində nəşrinin təqdimatı böyük maraqla qarşılanıb.

# Özbəkistanda Türk Dövlətləri Təşkilatı işçi qrupunun toplantısı

Fevralın 9-10-da Özbəkistanın Səmərqənd şəhərində Türk Dövlətləri Təşkilatı (TDT) işçi qrupunun toplantısı keçiriləcək.

Toplantıda Özbəkistan, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Macarıstanın nümayəndələri iştirak edəcəklər.

Özbəkistan Turizm və İdman Nazirliyinin yaydığı məlumata görə, işçi qrup Kokand şəhərinin "Türk dünyasının turizm paytaxtı" elan olunması və bununla bağlı tədbirlər planını müzakirə edəcək, müvafiq qərar qəbul olunacaq.

# Yerlərdəki mədəniyyət müəssisələri müasir çağırışlara cavab verməlidir



əvvəli səh. 1-də

Teatrın binası ilə tanışlıqdan sonra yaradıcı heyətlə görüş keçirilib. Nazir görüşdə teatr əməkdaşlarına yaradıcılıq uğurları arzulayıb. Anar Kərimov eyni zamanda teatrın yeni səhnəsində Gəncənin tarixini əks etdirən əsərlərin tamaşaya qoyulmasını tövsiyə edib.

Gəncə Dövlət Kukla Teatrına gələn nazir burada kollektivin iş şəraiti ilə tanış olub. Məlumat verilib ki, teatr tarixi binada yerləşir, yaradıcı heyət tərəfindən yeni tamaşalar nümayiş olunur. Nazir repertuarda olan tamaşalardan parçalar izləyib, tövsiyələrini diqqətə çatdırıb.

Daha sonra Gəncədəki Nizami Kinoteatrı ilə tanış olan Anar Kərimova müəssisənin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması məqsədilə yeni layihələrin hazırlanması barədə məlumat verilib.

### Ölkə rəhbərliyi tərəfindən mədəniyyət sahəsinə xüsusi münasibət var

Səfər çərçivəsində Anar Kərimov F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında Gəncə regionunun mədəniyyət ictimaiyyətinin nümayəndələri ilə görüş keçirib.

Nizami yurdu Gəncənin Azərbaycan və dünya mədəniyyəti üçün əhəmiyyətini qeyd edən nazir bu şəhərin yetirdiyi tarixi şəxsiyyətlər, mədəniyyət və incəsənət xadimləri barədə söhbət açıb. Bildirilib ki, bu qədər tanınmış simanı dünyaya bəxş edən Gəncədə yaşayıb-yaratmaq qürurverici hissdir.

Nazir həmçinin diqqətə çatdırıb ki, mədəniyyətə əlvanca rimov F. ... Nazir həmçinin diqqətə çatdırıb ki, mədəniyyətə əyləncə sahəsi kimi yanaşmaq olmaz, mədəniyyət ölkəmizin strateji məqsədlərini özündə cəmləşdirən həyat tərzidir. Ulu əcdadlarımızın yaratdığı və bizə miras qoyduğu maddi mədəni irsimizin qorunması vacibdir. Bu sahəyə ölkə rəhbərliyi tərəfindən xüsusilə həssas münasibət var, daim diqqət və qayğı göstərilir.

44 günlük Vətən müharibəsində əldə etdiyimiz Qələbənin qürur tariximizin başlanğıcı olduğunu vurğulayan Anar Kərimov bu kontekstdə mədəniyyət sahəsinin üzərinə düşən öhdəlikləri qeyd edib. Bildirib ki, ölkəmizdə şəhidlərimizin xatirəsini və Vətən müharibəsində tarixi Zəfəri əbədiləşdirən memorial komplekslər, muzeylər tikilir. Bu günlərdə dövlət başçısı tərəfindən Gəncə Memorial Kompleksinin təməli qoyulub. Bu istiqamətdə işlər davam etdiriləcək.

İnsanların yaşam tərzində mədəniyyətin və təhsilin rolunu qeyd edən nazir bu baxımdan kino, teatr, kitabxana və muzeylərin əhəmiyyətini vurğulayıb. Deyib ki, mədəni mirasın nəsildən-nəslə ötürülməsi, yeni nəslin təhsilli və mədəniyyətli olaraq yetişməsi ölkəmiz üçün müstəsna önəmli məsələdir.

Regional mədəniyyət idarələrinin fəaliyyətindən danışan Anar Kərimov nazirlik sistemində aparılan sistemli islahatlara da toxunub. Bildirib ki, yeni yanaşmada mədəniyyət sahəsində çalışan insanlar dövlətçilik, şəffaflıq, ədalətlilik, məsuliyyət kimi prinsipləri öz fəaliyyətlərində rəhbər tutmalı, daha təşəbbüskarlıq və peşəkarlıq nümayiş etdirməli, göstəriciləri xidmətlərin keyfiyyətini daha da artırmalıdırlar. Nazir eyni zamanda bu sahədə yeni layihələrin keçirilməsinin, marketinqin aparılmasının, maddi-texniki vəziyyətin yüksəldilməsinin prioritet məsələlərdən olduğunu diqqətə çatdırıb.

Mədəniyyət işçilərinin suallarını cavablandıran Anar Kərimov onlara işlərində müvəffəqiyyətlər arzulayıb.

Sonda Gəncə Dövlət Filarmoniyasının "Şuşa İli"nə həsr olunmuş konsert proqramı təqdim edilib.

# Nazir Şəmkir rayonunda mədəniyyət ocaqlarına baxış keçirib

Mədəniyyət naziri Anar Kərimov ölkəmizin qərb bölgələrinə səfəri çərçivəsində fevralın 4-də Şəmkir rayonuna gəlib. Nazir əvvəlcə Şəmkir şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Sonra Şəmkir rayon Mədəniyyət Mərkəzinə baş çəkən Anar Kərimov müəssisənin fəaliyyəti ilə tanış olub. Mədəniyyət mərkəzi nəzdində xalq kollektivlərinin, teatr qruplarının yaradılmasının vacibliyini vurğulayan nazir bu xüsusda müvafiq göstərişlər verib.

Şəmkir şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminə (MKS) gələn nazir kitabxananın şöbələri, kitab fondları barədə məlumat alıb. MKS-də texniki təchizatın yaxşılaşdırılması üçün tapşırıq verilib.





Şəmkir Rayon Tarix-Diyarşünaslıq Muzeyində olan mədəniyyət naziri ekspozisiyaya və fonda baxış keçirib. Muzeydə memar-rəssam Fərman Hüseynov tərəfindən yaradılmış "Toy" adlı divar rəsmi xüsusi diqqət çəkir. Bildirilib ki, 73 kvadratmetr sahəsi olan əsər ölkəmizdə bu qəbildən ən böyük əl işlərindəndir. Nazirə muzeydə qorunan 2500 illik sütun daşları haqqında da məlumat verilib.

Nazir Şəmkirdəki Uşaq musiqi məktəbi ilə də tanış olub, məktəbin xor kollektivinin, tar ixtisası üzrə təhsil alan şagirdlərin ifalarını dinləyib. Bildirilib ki, məktəbdə 665 şagirdin təlim-tərbiyəsi ilə 134 nəfər müəllim məşğul olur. Burada 10 ixtisas – fortepiano, violin, tar, kamança, qarmon, xanəndəlik, nağara, klarnet, xor, nəzəriyyə üzrə tədris həyata keçirilir.

***

Mədəniyyət naziri Anar Kərimov fevralın 4-də Heydər Əliyev Mərkəzində Şəmkir Regional Mədəniyyət İdarəsinin tabeliyindəki müəssisələrin rəhbərləri ilə görüş keçirib.

Görüşdə mədəniyyət sahəsinin inkişafı ilə əlaqədar qarşıda duran vəzifələrdən bəhs edilib, bu sahədə çalışan işçilərin peşəkarlıq səviyyəsinin, təşəbbüskarlığının artırılmasının ümumi inkişaf üçün əhəmiyyəti vurğulanıb.

Anar Kərimov bildirib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən mədəniyyət sahəsinə daim diqqət və qayğı göstərilir. Mədəniyyət müəssisələri də öz fəaliyyətini bu diqqət və qayğıya adekvat qurmalıdır.

Görüşdə mədəniyyət müəssisələrində mövcud olan problemlərdən söz açılıb, fikir və təkliflər dinlənilib. Nazir problemlərin aradan qaldırılması üçün müvafiq tapşırıqlar verib.

Sonda mədəniyyət işçiləri ilə xatirə şəkli çəkdirilib.

# Müxtəlif səpkili tədbirlər

Sumqayıt RMİ Sumqayıt şəhər Bülbül adına 2 nömrəli Uşaq incəsənət məktəbində Azərbaycan bəstəkarlarının yaradıcılığına həsr olunan konsert proqramı təşkil edilib. Ölkəmizdə fortepiano musiqisinin tarixi, parlaq ifaçılar haqqında məlumat verilib. Fortepiano şöbəsinin şagirdləri bəstəkarlarımızın əsərlərini ifa ediblər.

Sumqayıt şəhər Səid Rüstəmov adına 3 nömrəli Uşaq incəsənət məktəbi Fortepiano şöbəsinin 4-cü sinif şagirdi Fidan Mirzəyeva Qazaxıstanın Nur-Sultan şəhərində onlayn formatda keçirilən beynəlxalq vokal-instrumental müsabiqəsində 3-cü dərəcəli diploma layiq görülüb.



Masallı RMİ Yardımlı rayon Heydər Əliyev Mərkəzində Xocalı faciəsinin otuzuncu ildönümü ilə bağlı "Bütün bəşəriyyətə qarşı törədilmiş cinayət" adlı tədbir təşkil olunub. Çıxış edənlər faciənin təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı törədildiyini söyləyiblər.

Q.Qarayev adına 1 nömrəli Uşaq musiqi məktəbində dahi bəstəkar Qara Qarayevin yaradıcılığına həsr olunan tədbir keçirilib. Tədbirdə bəstəkarın "Yeddi gözəl", "İldırımlı yollarla" baletlərindən musiqi parçaları ifa olunub, "24 prelüd" silsiləsindən nümunələr, fortepiano üçün pyeslər, "Bir məhəlləli iki nəfər" və "Dənizi fəth edənlər" kinofilmlərindən mahnılar səsləndirilib.



Sabirabad RMİ Şirvan şəhər MKS-nin 1 saylı kitabxana filialı tərəfindən "Şuşa İli" ilə əlaqədar açıq havada kitab sərgisi təşkil edilib. Sərgidə Nizami Gəncəvi, Xurşidbanu Natəvan, Məmməd Araz və digər müəlliflərin əsərləri nümayiş etdirilib.

Saatlı rayon Mədəniyyət Mərkəzinin Hacıqasımlı kənd Diyarşünaslıq klubunda "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirici tədbir keçirilib. Çıxış edənlər narkotiklərin insan orqanizminə məhvedici təsiri, törətdiyi sosial bəlalar barədə danışıblar.

Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzində "Dünəndən bu günə Azərbaycan" adlı elmi-praktik konfrans keçirilib. Mərkəzin direktoru Xəyalə Kərimova, Gənclərin İnkişaf və Karyera Mərkəzi rayon nümayəndəliyinin rəhbəri Zaur Musazadə çıxış edərək ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının tarixində misilsiz xidmətlərindən söz açıblar.

İsmayıllı RMİ Qəbələ rayon Mədəniyyət Mərkəzinin əməkdaşları tərəfindən rayonun Heydər Əliyev parkında "Ağ ölümə yox deyək!" başlığı altında tədbir keçirilib. Maarifləndirici aksiyada narkotik vasitələrin istifadəsinin zərərini və acı nəticələrini özündə əks etdirən broşürlər nümayiş etdirilib.

Ağdaş RMİ Zərdab rayon Heydər Əliyev Mərkəzində Həzi Aslanov adına 3 saylı tam orta və rayon 4 saylı məktəbin şagirdləri üçün "Azərbaycan gəncliyinin hərbi-vətənpərvərlik tərbiyəsinin inkişafında ümummilli lider Heydər Əliyevin rolu əvəzsizdir" mövzusunda müzakirə təşkil olunub. Müzakirədə Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə gənclərə göstərdiyi diqqət və qayğıdan söz açılıb.

Hazırladı: N.Məmmədli

# Yaddaşlarda əbədi yaşayacaq qəhrəmanlar

Gəncə RMİ Gəncə şəhər MKS-nin 1 saylı kitabxana filialı Mübariz İbrahimovun (1988-2010) doğum günü (7 fevral) ilə əlaqədar "Sən ananın gözündəki əbədi qürursan" başlığı altında sərgi təşkil edib. Sərgidə cəsur döyüşçüyə həsr edilmiş kitablar və milli qəhrəmanlarımızın fotoşəkilləri nümayiş etdirilib.



Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı və bir qrup mədəniyyət işçisi Vətən müharibəsi şəhidi Araz Baxşəliyevin ailəsini ziyarət edib. Görüşdə idarə rəisi Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun tarixi Qələbə qazanmasından, igid oğullarımızın qəhrəmanlıqlarından söz açıb.

Masallı RMİ Yardımlı rayon Heydər Əliyev Mərkəzi "Şuşa İli" çərçivəsində "Unudulmayan qəhrəmanlar" layihəsini həyata keçirir. Şuşanın Milli Qəhrəmanlarının tanıdılması məqsədilə həyata keçirilən layihənin ilk tədbiri Ramiz Qəmbərova (1962-1992) həsr olunub. Tədbirə R.Qəmbərovun Birinci Qarabağ müharibəsində göstərdiyi şücaətdən danışılıb.

Şəki RMİ-nin rəis əvəzi Tərlan Nəsibov, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Şəki rayon komitəsinin sədri Rəhman Məmmədov və qurumun əməkdaşları Vətən müharibəsi şəhidləri Toğrul Nağıyev və Cavidan Məmmədlinin ailələrini ziyarət edib, onlara mənəvi dəstək olub, ərzaq yardımı göstəriblər.



Ağcabədi RMİ Ağdam rayon Qurban Pirimov adına 2 saylı Uşaq musiqi məktəbinin müəllim kollektivi Mübariz İbrahimovun doğum günü münasibətilə II Fəxri xiyabanda məzarını ziyarət edib. Azərbaycanlı cəsur əsgər Rahib Məmmədovun (1967-1987) xatirəsi isə onun adını daşıyan Ağdam rayon Mahrızlı kəndindəki Döyüş Şöhrəti Muzeyində anılıb. Rahib Məmmədov haqqında "Azərbaycanfilm"in 1987-ci ildə istehsalı etdiyi və Dövlət Film Fondu tərəfindən bərpa olunan "Əbədiyyətə qovuşan ömür" sənədli filmi nümayiş olunub.



Bərdə RMİ Yevlax şəhər Mədəniyyət Mərkəzinin filialı olan Salahlı kənd Folklor evinin əməkdaşları Vətən müharibəsi qazisi Eltun Vəliyevin ailəsinə baş çəkib, qayğıları ilə maraqlanıblar.

Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə Milli Qəhrəman Akif Əkbərovun (1952-1991) anadan olmasının 70 illiyi ilə əlaqədar tədbir keçirilib. Çıxış edənlər qəhrəman şəhidin həyat və döyüş yolu haqqında danışıblar.

Ağstafa RMİ Ağstafa rayon MKS Mübariz İbrahimovun doğum günü ilə əlaqədar "Ölümsüzlüyə qovuşan qəhrəman" başlıqlı tədbir keçirib. MKS-nin direktoru Solmaz Nağıyeva Milli Qəhrəmanın yeni nəsillərə örnək şücaətindən bəhs edib.



Tovuzda Vətən müharibəsi şəhidi Ceyhun İsmayılovun xatirəsinə inşa edilmiş bulaq-abidə kompleksinin açılış mərasimi keçirilib. Mərasimdə regional idarənin Tovuz rayonu üzrə nümayəndəsi Adil Həsənov və mədəniyyət işçiləri iştirak edib.

Biləsuvar RMİ Biləsuvar rayon MKS-nin kənd kitabxana filiallarının əməkdaşları Milli Qəhrəman Mübariz İbrahimovun doğum günü ilə əlaqədar şəhidin ailəsini və ev-muzeyini ziyarət ediblər.

İsmayıllı Regional Mədəniyyət İdarəsi (RMİ) İsmayıllı rayon MKS-nin Uşaq şöbəsində Milli Qəhrəman Mübariz İbrahimovun doğum günü münasibətilə tədbir keçirilib. Tədbirdə qəhrəmanın həyat və döyüş yolu haqqında məlumat verilib.

# Kitabxanada elmi-kütləvi ədəbiyyatın təbliği həftəsi

Sumqayıt RMİ-nin tabeliyindəki Sumqayıt Mərkəzi Uşaq Kitabxanasında "Elmi-kütləvi ədəbiyyatın təbliği həftəsi" keçirilib.



Həftə çərçivəsində "Bunları bilmək maraqlıdır" adlı sərgiguşə təşkil edilib. "Elm xadimlərimizi tanıdaq" istiqaməti üzrə Sumqayıt şəhər N.Tusi adına 12 nömrəli tam orta məktəbin 8B sinif şagirdlərinin iştirakı ilə "Dahi alim Nəsirəddin Tusi" adlı oxucu konfransı keçirilib.

"Dünyanı dəyişən qadınlar" adlı videoçarx hazırlanıb. Videomaterialda kompüter proqramçısı Grace Hopper, qabıyyan maşının ixtiraçısı Josephine Cochrane və başqaları haqqında məlumat verilib.

Həmçinin kitabxanada 21 saylı tam orta məktəbin 4C sinif şagirdləri və valideynlərin iştirakı ilə "Uşaqların zərərli informasiyalardan qorunması yolları" adlı dəyirmi masa təşkil edilib. Bu mövzuda valideynlərə tövsiyələr verilib, "Uşaqların internet təhlükəsizliyi" adlı videoçarx nümayiş olunub.

# Turizm destinasiyalarının idarə edilməsi

## Azərbaycan dilində ilk dərs vəsaiti

Dövlət Turizm Agentliyinin (DTA) tabeliyindəki Şəki Destinasiya Menecmenti Təşkilatının dəstəyi ilə "Turizm destinasiyalarının idarə edilməsi" kitabı nəşr olunub. Fevralın 4-də Azərbaycan Turizm və Menecment Universitetində kitabın təqdimatı keçirilib.

DTA sədrinin müşaviri Kənan Quluzadə yeni kitabın dərs vəsaiti olaraq tələbələrin turizm destinasiyaları üzrə əldə edəcəyi nəzəri biliklərə dəstək olacağını deyib. Bildirilib ki, kitab 7 müəllifin iştirakı ilə hazırlanıb.

ATMU-nun tədris işləri üzrə prorektoru Zaur Bağırov kitabın turizm sahəsində təhsil alan tələbələr və akademik heyət üçün əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, bundan əvvəl turizm destinasiyaları mövzusu üzrə Azərbaycan dilində bilik mənbələrinin, dərs vəsaitlərinin azlığı müəllimlərə, eləcə də tələbələrə mövzunu mənimsəməkdə çətinliklər yaradırdı. Yeni nəşr bu mövzu ilə əlaqəli Azərbaycan dilində ilk dərs vəsaitidir.

Dərslik ölkənin turizm təhsili verən tədris müəssisələrinin kitabxanalarına paylanılacaq.

# Qara Qarayevin anadan olmasının 104-cü ildönümü münasibətilə

## Bəstəkarın ev-muzeyində musiqili xatirə axşamı

Azərbaycanın dünya şöhrətli bəstəkarı, pedaqoq, akademik, SSRİ Xalq artisti, dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Qara Qarayevin (1918-1982) anadan olmasının 104-cü ildönümü (5 fevral) münasibətilə mədəniyyət ocaqlarında müxtəlif tədbirlər keçirildi, dahi musiqiçinin Fəxri xiyabandakı məzarı başında xatirəsi ehtiramla yad edildi.





Fevralın 4-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin təşkilatçılığı ilə Qara Qarayevin Bakıdakı ev-muzeyində də böyük bəstəkarın anadan olmasının 104-cü ildönümünə həsr edilən tədbir gerçəkləşdi.

Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova bəstəkarın zəngin yaradıcılığının milli və bəşəri xüsusiyyətlərindən danışdı. Bildirdi ki, Azərbaycan və dünya musiqi mədəniyyətinə töhfələr vermiş Qara Qarayev bənzərsiz yaradıcılığı ilə gələcəyə yeni yollar açan novator sənətkar olub. Onun hər bir əsəri isə musiqi həyatımızın xüsusi hadisəsinə çevrilib və bundan sonra hələ çox yüzilliklər insanların mənəvi dünyasının zənginləşməsinə və zövqünün formalaşmasına xidmət edəcək.

Ev-muzeyin direktoru Züleyxa Qarayeva-Bağırova çıxış edərək sənətkarın xalq musiqisinə, doğma vətəninə ülvi tellərlə bağlılığından, tələbələrinə böyük sevgi və həssaslıqla yanaşmasından söz açdı. Diqqətə çatdırdı ki, o, tələbələrinin yaradıcı potensialını dərindən duyar və fərdi üslublarını qoruyardı.

Çıxışlardan sonra konsert proqramı təqdim edildi. Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin direktoru, Əməkdar artist Nərgiz Əliyeva, Əməkdar artist Yuliya Motorina, Samirə Fərəcova, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin X sinif şagirdi, beynəlxalq müsabiqə laureatı Xədicə Hacılı (skripka) və İrina Mehdiyevanın (fortepianoda) görkəmli bəstəkarın əsərlərindən nümunələr ifa etdilər. Həmçinin görkəmli bəstəkarlar Zakir Bağırov və Qara Qarayevin nəvəsi, hazırda ABŞ-da yaşayan saksofon ifaçısı, bəstəkar Zülfüqar Bağırovun Azərbaycan bəstəkarlarının musiqisinə kompozisiyalarının videoyazısı nümayiş olundu.

**S.Fərəcov**

# Əməkdar rəssam, pedaqoq Fikrət Həşimov vəfat edib

Azərbaycan mədəniyyətinə itki üz verib. Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecinin direktoru, Əməkdar rəssam, professor Fikrət Həşimov 8 fevral 2022-ci il tarixində, ömrünün 74-cü ilində vəfat edib.



Fikrət Məmməd oğlu Həşimov 1948-ci il fevralın 19-da Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda anadan olub. 1968-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirib. 1976-cı ildən Sankt-Peterburq şəhərində İ.Repin adına Rəssamlıq Akademiyasında təhsilini davam etdirib. 1978-ci ildə SSRİ Rəssamlar İttifaqının üzvü seçilib.

Daha çox dəzgah boyakarlığı ilə məşğul olan rəssamın əsərləri Rusiya, Polşa, Almaniya, İtaliya və digər ölkələrdə sərgilərdə nümayiş etdirilib, həmçinin muzey və şəxsi kolleksiyalarda saxlanılır. Fırça ustasının "Bülbül kimi ötərdik" və "Araz çayının mahnısı" əsərləri Moskvada Dövlət Tretyakov Qalereyasının fondundadır.

Fikrət Həşimov 1999-cu ilə qədər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Rəngkarlıq kafedrasının müdiri vəzifəsində çalışıb. 1999-cu ildən 2019-cu ilə kimi Türkiyənin Ərzurum Atatürk Universitetinin Rəssamlıq fakültəsində dərs deyib, professor elmi adı alıb. 2002-ci ildə "Əməkdar rəssam" fəxri adına layiq görülüb.

Sənətkar 2019-cu ildən Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecinin direktoru vəzifəsində işləyirdi.

Allah rəhmət eləsin.

# "Əbədi musiqi günəşi"

## Mərkəzi İncəsənət Məktəbinin konsert proqramı



Qara Qarayevin doğum günü ilə bağlı dahi bəstəkarın adını daşıyan Mərkəzi İncəsənət Məktəbi tərəfindən "Əbədi musiqi günəşi" adlı layihə həyata keçirilib.

Layihə çərçivəsində eyniadlı konsert proqramı fevralın 4-də Masallı şəhərində təqdim edilib. Mərkəzi İncəsənət Məktəbinin kollektivi səfər zamanı Masallı Tarix-Diyarşünaslıq Muzeyi və Masallı şəhər onbirillik İncəsənət məktəbi ilə də tanış olub.

Sonra Nizami Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzində gənc istedadların Qara Qarayevin yaradıcılığına həsr olunmuş rəsm sərgisinə baxış keçirilib.

Mədəniyyət mərkəzində təqdim olunan konsertdən əvvəl böyük bəstəkarın həyat və yaradıcılığından söz açılıb. Şagird və müəllimlərin ifasında bəstəkarın əsərlərindən ibarət rəngarəng proqram təqdim edilib. Mərkəzi İncəsənət Məktəbinin direktoru, Əməkdar artist Əziz Qarayusifli Qara Qarayevin "İnsan məskən salır" filminə yazdığı musiqidən bir parçanı klarnetdə ifa edib.

Fevralın 5-də Mərkəzi İncəsənət Məktəbinin kollektivi Fəxri xiyabanda Qara Qarayevin məzarını ziyarət edib.

Məktəbdə "Əbədi musiqi günəşi" konsert proqramı gerçəkləşib. Musiqi proqramından sonra məktəbin müəllimləri Əli Ağadadaşov və Nigar Şixəliyeva tərəfindən rəsm sərgisi də təqdim edilib.

# "Yeni gənclik" musiqi günlərinin son akkordları

Mədəniyyət Nazirliyi tərəfindən 2-4 fevral tarixində reallaşdırılan "Yeni gənclik" musiqi günləri sona çatdı. Azərbaycan Gəncləri Günü münasibətilə təşkil olunan layihənin son konserti fevralın 4-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında gerçəkləşdi.



Musiqi axşamında Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (dirijor – Mustafa Mehmandarov) müşayiəti ilə respublika və beynəlxalq müsabiqələr laureatı, Prezident təqaüdçüsü Vüsalə Babayeva (fortepiano) çıxış etdi.

Proqramda ilk olaraq dünya şöhrətli polyak bəstəkarı Frederik Şopenin fortepiano və orkestr üçün 1 nömrəli konserti səsləndirildi. Gənclərin bayram konsertinə dahi Azərbaycan bəstəkarı Qara Qarayevin "Don Kixot" simfonik qravürü ilə yekun vuruldu. Orkestrin və solistin coşqulu ifası tamaşaçıların gur alqışları ilə qarşılandı.

Qeyd edək ki, Vüsalə Babayeva Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) bakalavr və magistr pillələrində təhsil alıb. Ölkə başçısının müvafiq sərəncamı ilə adı "Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılıb və Prezidentin aylıq təqaüdünə layiq görülüb. Təhsilini başa vurduqdan sonra BMA-da konsertmeyster kimi əmək fəaliyyətinə başlayıb. Bir çox yerli və beynəlxalq müsabiqədə uğurla çıxış edərək mükafatlar qazanıb.

2019-cu ildə Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Prezident təqaüdçülərinin konsert-festivalında səhnəyə çıxıb. Gənc pianoçu solo və Azərbaycan Dövlət Simfonik Orkestri ilə birgə müxtəlif konsertlərdə çıxış edir.

**Nurəddin**

# "Mənim ağ göyərçinim"in növbəti nümayişi

## Xocalı qurbanlarının xatirəsinə ithaf edilir

Fevralın 12-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında yazıçı-dramaturq Tamara Vəliyevanın "Mənim ağ göyərçinim" əsəri əsasında səhnələşdirilən eyniadlı tamaşanın növbəti nümayişi olacaq.

Xocalı faciəsinin 30-cu ildönümü münasibətilə təqdim olunacaq səhnə əsərinin süjeti azadlıq və müstəqillik uğrunda canlarını qurban vermiş gənclərin nakam həyat hekayəsi əsasında qurulub.

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, səhnə tərtibatçısı Gürcüstanın Tumanaşvili adına Dövlət Dram Teatrının baş rəssamı Şota Qlurjidze, musiqi tərtibatçısı Vladimir Neverovdur. Rolları Əməkdar artistlər Nəsibə Eldarova, Rahib Əliyev, aktyorlar Təhminə Məmmədova, Asya Atakişiyeva, Mirzağa Mirzəyev, Eşqin Quliyev, Məsumə Babayeva, Kərəm Hadızadə, Zülfiyyə Alhüseynova, Xalidə Şərifova, Ədalət Əbdülsəməd və başqaları ifa edirlər.



# Uğur qanadlarında

## Paytaxt məktəbliləri beynəlxalq müsabiqələrdə iştirak ediblər

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Əhməd Bakıxanov adına 6 nömrəli Musiqi məktəbinin şagirdləri "Astana Stars" Beynəlxalq Festivalı (Qazaxıstan) çərçivəsində keçirilən və Avstriya bəstəkarı Frans Yozef Haydnın 290 illiyinə həsr olunmuş "Fantasia" klassik musiqi müsabiqəsində onlayn formatda iştirak ediblər.

Baş idarədən bildirilib ki, məktəbin qanun ifaçılığı üzrə şagirdləri – respublika və beynəlxalq müsabiqələr laureatı Xədicə Balabəyova "simli alətlər" nominasiyası üzrə 11-13 yaş kateqoriyasında Qran-pri mükafatına, Əsmər Qədirli isə 14-16 yaş kateqoriyasında I dərəcəli laureat adına layiq görülüb. Xədicə Adil Gərayın "Səfikürd", Əsmər isə "Bağçakürd" əsərlərini ifa edərək münsiflər heyətinin rəğbətini qazanıblar.

Hər iki şagirdin müəllimləri Vəfa Babazadə və Ayna Səttarova təşəkkürnamə ilə təltif ediliblər.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Hüseynqulu Sarabski adına 7 nömrəli Uşaq musiqi məktəbinin şagirdləri Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Gənclərə dəstək" layihəsi çərçivəsində paytaxtdakı Rus evində keçirilmiş konsertdə fəal iştirak ediblər.

Fortepiano ixtisası üzrə müəllim Sevil Qasımovanın şagirdləri Camal Əliyev, Fərəh Əliyeva və Cəmilə Rəhimovanın çıxışları tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb və onlar təşkilatçılar tərəfindən fəxri fərmanlarla təltif olunublar.

***

Bu il 60 illik yubileyini qeyd etməyə hazırlaşan Fikrət Əmirov adına 6 nömrəli onbirillik incəsənət məktəbinin şagirdləri də yeni uğurlara imza atıblar. Məktəbin şagirdləri Qazaxıstanın Nur-Sultan şəhərində keçirilən bir neçə müsabiqəyə qatılıblar. "Hörmətli Astana" VI beynəlxalq onlayn müsabiqəsində məktəbin fortepiano sinfində təhsil alan H.Hacıyeva (VII sinif, müəllim G.Süleymanova) Qran-pri mükafatına layiq görülüb. "Musical Christmas Day" ("Musiqili Milad günü") adlı vokal-instrumental onlayn müsabiqədə məktəbin fleyta ixtisası üzrə şagirdləri – L.İbadlı (III sinif) I dərəcəli laureat adını, Əhməd Eyvazlı (IV sinif; hər ikisinin müəllimi A.Əzizova, konsertmeysteri S.Ağabalayeva) Qran-pri mükafatı qazanıb. Nur-Sultan şəhərində keçirilən "British Lion" adlı vokal-instrumental onlayn müsabiqədə isə məktəbin xanəndəlik sinfində təhsil alan Böyükağa Quluzadə (III sinif, müəllim S.Yadigarov) Qran-pri mükafatına layiq görülüb.

# Lənkəran Dövlət Dram Teatrında "açıq qapı" günü

Fevralın 6-da Lənkəran Dövlət Dram Teatrında məktəblilər üçün "açıq qapı" günü keçirilib.



Teatrın aparıcı aktyorlarından Əməkdar artist, Prezident mükafatçısı Sucəddin Mirzəyev, Miraslan Ağayev və Allahverən Babayev uşaqları teatrın foyesində tanınmış sənətkarların portretləri, 44 günlük Vətən müharibəsində Zəfərin qazanılmasında şücaət göstərmiş şəhidlərin qəhrəmanlığını vəsf edən rəsm əsərləri ilə, eləcə də qrim, əlbəsə və digər yardımçı sexlərlə tanış ediblər.

Bu cür sosial layihələrin mütəmadi olaraq davam etdiriləcəyini bildirən teatrın baş rejissoru Anar Sadıqov "açıq qapı" günlərinin teatr-tamaşaçı münasibətlərinin möhkəmləndirilməsində əhəmiyyət kəsb etdiyini qeyd edib.

Teatrla tanışlıqdan sonra Tərlan Abdullayevin müəllifi və quruluşçu rejissoru olduğu "Tilsimlənmiş qız" tamaşasına baxış olub.

# Bakıdakı Rus evində "Müharibənin simaları..." fotosərgisi

Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin Bakıdakı Rus evində "Müharibənin simaları. Stalinqrad döyüşü" adlı fotosərgi açılıb. İkinci Dünya müharibəsinin ən şiddətli mərhələsi olan Stalinqrad döyüşünün (1943) 79-cu ildönümünə həsr olunan fotosərgi Rusiyanın "Obrazı voynı" portalından fotomateriallar əsasında hazırlanıb.



Tədbirdə "Rossotrudniçestvo"nun Azərbaycandakı nümayəndəliyinin rəhbəri İrek Zinnurov, Rusiyanın Bakıdakı səfirliyinin müşaviri İqor Yeronin çıxış ediblər.

Rusiya Dövlət Dumasının deputatı Aleksey Volotskov və "Stalinqrad döyüşü" muzeyqoruğunun direktoru Aleksey Dementyevin videomüraciətləri təqdim olunub. Çıxışlarda 1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbəyə Azərbaycanın verdiyi misilsiz töhfə də vurğulanıb.

Tədbirin sonunda vokalçı, bəstəkar Qasım Xəlilov çıxış edib.

# Xeyriyyə məqsədli "Sehrli palitra"

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Mərdəkan Mədəniyyət Sarayında Leyla Əlihümbətovanın "Sehrli palitra" adlı rəsm sərgisi təşkil olunub.

Baş idarədən bildirilib ki, sərgi Xəzər Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə xeyriyyə məqsədilə təşkil olunub. Rəsmlərin satışından əldə olunan vəsait "YAŞAT" Fonduna ianə ediləcək.

Sərgidə rəssamın müxtəlif janrlarda çəkdiyi 50-dən çox əl işi yer alıb.

## "ŞUŞA MƏDƏNİYYƏTİNİN İNCİLƏRİ"

# Xanın imzası olan "Şuşanın dağları"

Mədəniyyət Nazirliyinin həyata keçirdiyi "Şuşa mədəniyyətinin inciləri" layihəsinin müxtəlif bölmələri üzrə təqdimatlar davam edir. Layihənin "Azərbaycan musiqisinin məbədi – Şuşa" bölməsi üzrə ilk materialı "Şuşanın dağları" mahnısına həsr olunub.



Şuşada musiqi onun hər daşına, qalasına, abhavasına hopub. Qarabağın baş tacı, Prezident İlham Əliyev tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhəri haqqında ilk mahnı ustad xanəndə Xan Şuşinski tərəfindən bəstələnib.

Musiqisi və sözləri xanəndəyə məxsus olan "Şuşanın dağları" mahnısı XX əsrin 20-ci illərində yaranıb. Mahnı muğam üçlüyü – xanəndə (qaval), tar və kamança ifaçıları üçün nəzərdə tutulub. Tez bir zamanda sevilən və xalq mahnısı kimi qəbul edilən "Şuşanın dağları" bəstəkar Səid Rüstəmov tərəfindən nota alınaraq "Azərbaycan xalq mahnıları" toplusunda (1967) çap olunub.

Mahnı iki dəfə – 1946-cı ildə muğam üçlüyünün, 1962-ci ildə isə xalq çalğı alətləri ansamblının ifasında lentə alınıb. Bu mahnıya Xan Şuşinskidən sonra bir çox ifaçılar müraciət edib. Sevindirici haldır ki, müasir dövrümüzdə müğənnilər tərəfindən ifa olunan "Şuşanın dağları" mahnısı ilkin variantda dinləyicilərə təqdim edilir. Mahnı bəstəkar Adilə Yusifova tərəfindən xor üçün də işlənilərək çap olunub. Musiqi əsəri həmçinin muğam triosunun ifasında "Dərviş Parisi partladır" (1976) bədii filmində səslənir. Ekran əsərində hadisələr elə Qarabağda baş verir.

Qarabağda tarixi Zəfərimizdən, 2021-ci ildə qala-şəhərimizdə keçirilən musiqi və ədəbiyyat bayramlarında yenidən Xanın səsində "Şuşanın dağları başı dumanlı" sədaları havalandı. Cıdır düzündə Xanın səsinin havalanması ilə Üzeyir bəyin, Xan qızı Natəvanın, Bülbül və başqa Şuşa ünvanlı sənətkarların da ruhu rahatlıq tapdı.

*Şuşanın dağları başı dumanlı,*
*Qırmızı qoftalı, yaşıl tumanlı,*
*Dərdindən ölməyə çoxdur gümanım.*
*Ay qız, bu nə qaş-göz, bu nə tel,*
*Ölərəm dərdindən, onu bil,*
*Danışmasan da, balam, barı gül...*

## TÜRK TARİXİNİN AVŞARLAR BOYU

# Dünya Avşarlar Dərnəyi Adanada toplanıb

Nadir şah Əfşar təkcə Azərbaycanın deyil, ümumiyyətlə, dünya tarixinin dahi şəxsiyyətlərindən biridir.

Bu fikir yanvarın 29-da Türkiyənin Adana şəhərində Dünya Avşarlar Dərnəyinin (Dünya Avşarlar Təhsil, Mədəniyyət və Yardımlaşma Dərnəyi) yaradılmasının 6-cı ildönümünə həsr olunan beynəlxalq konfransda səslənib.

"Azərbaycan Tarixçiləri" İctimai Birliyindən bildirilib ki, konfransa Azərbaycan, Türkiyə, Şimali Kipr, Suriya, İraq, Türkmənistan və başqa ölkələrdən nümayəndələr qatılıb.

Tədbiri giriş sözü ilə açan Dünya Avşarlar Dərnəyinin rəhbəri Şeref Kocakaya ötən illərdə həyata keçirdikləri fəaliyyətdən bəhs edib. O, Nadir şah Əfşara həsr olunan ilk beynəlxalq elmi konfransın üç il əvvəl Bakıda keçirildiyini diqqətə çatdırıb və böyük sərkərdənin ümumtürk tarixində xüsusi yeri olduğunu vurğulayıb.




Dünya Avşarlar Dərnəyinin Azərbaycan təmsilçisi, şair Şöhlət Əfşar qeyd edib ki, Nadir şah tarixin gedişini dəyişdirən sərkərdədir. O, tarixdə üç imperiya – Çar Rusiyası, Osmanlı və Böyük Moğol imperiyaları ilə savaşdan qalib çıxan və çökmüş Səfəvi imperiyasının ərazisini daha da genişləndirərək Əfşarlar imperiyasını yaradan böyük hökmdardır...".

AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi Yaqub Mahmudov çıxışında bildirib ki, tarixinə sahib çıxan xalq yenilməzdir, tarixinə sahib çıxmayan xalq isə məhvə məhkumdur: "Xalqımızın tarixə bəxş etdiyi dahi şəxsiyyətlərdən biri Nadir şah Əfşardır. O, Əfşarların Qırxlı boyundan idi. Dərbənddəki Qırxlar məscidi, Qırxlar qəbiristanlığı, Qırxlar məhəlləsi və Qırxlar qapısı bu boyun yadigarlarıdır. Nadir şahı amansızlıqda, qırğınlar törətməkdə suçlayanlar yanılırlar, çünki bu barədə ilk mənbələrdə heç bir məlumata rast gəlinmir. O, məzhəb ayrılığına son qoymağa çalışırdı. Lakin Nadir şahın qətli ilə başladığı islahatlar yarımçıq qaldı və Azərbaycan tarixində fəlakətli bir dövr başlandı...".

Yaqub Mahmudovun çıxışı tədbir iştirakçıları tərəfindən hərarətli alqışlarla qarşılanıb. Beynəlxalq konfransda qeyd olunub ki, Əfşarlar imperiyası Səfəvilərin davamı idi. Tarixdə üç hökmdar – Makedoniyalı İskəndər, Əmir Teymur və Nadir şah Əfşar Hindistanı fəth edə bilmişdi.

Tədbirdə tarixçi-alimlər Yaqub Mahmudov və Tofiq Mustafazadənin müəllifi olduqları "Nadir şah Əfşar: tarixin gedişini dəyişdirən dahi sərkərdə" kitabı (2019) iştirakçılara təqdim edilib.

Sonda Azərbaycan nümayəndə heyəti adından Şeref Kocakayaya Nadir şah Əfşarın xətən üzərində işlənmiş portreti hədiyyə olunub.

Xatırladaq ki, 2019-cu ildə Bakıda AMEA-nın Tarix İnstitutu və Dünya Avşarlar Dərnəyinin birgə təşkilatçılığı ilə "Nadir şah Əfşar: tarixin gedişini dəyişdirən dahi sərkərdə" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

# Şair Şöhlət Əfşar vəfat edib



Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Şöhlət Əfşar vəfat edib. Bu barədə AYB-dən məlumat verilib.

Şöhlət Əfşar (Axundov Şöhlət Əşrəf oğlu) 1949-cu ildə Ağcabədi rayonunun Avşar kəndində anadan olub.

"Sükütdan asılmışam", "Dodaqdan könüllərə", "Bu dünyanın havasına oynama" və başqa kitabların müəllifidir. Dövri mətbuatda mütəmadi olaraq çıxış edib.

Dünya Avşarlar Dərnəyinin Azərbaycan təmsilçisi idi.

Allah rəhmət eləsin.

# Ustad xanəndənin xatirə gecəsi

Fevralın 6-da Beynəlxalq Muğam Mərkəzində (BMM) Xalq artisti, ustad xanəndə Ağaxan Abdullayevin (1950-2016) xatirəsinə həsr olunmuş tədbir keçirildi. "ASAN Könüllüləri" təşkilatının dəstəyi ilə gerçəkləşən gecədə görkəmli xanəndənin həyat və yaradıcılıq yoluna işıq salındı.

Əvvəlcə xanəndənin muğam müsabiqələrində və televiziya verilişlərində çıxışlarından kadrlar nümayiş olundu.

Xalq artistləri, tarzənlər Vamiq Məmmədəliyev, Malik Mansurov, BMM-in layihə rəhbəri Gülhüseyn Kazımlı çıxış edərək sənətkarın milli muğam sənətinin inkişafında xidmətlərindən söz açdılar.

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) əməkdaşı Əli İbrahimli çıxış edərək Ağaxan Abdullayev sənətinin yeni xanəndələr nəsli üçün təbliğinin əhəmiyyətli olduğunu dedi.

Sənətkarın oğlu Xoşbəxt Abdullayev tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirdi.

Xatirə gecəsi konsert proqramı ilə davam etdi. Ağaxan Abdullayevin yetirmələri Vəfa Vəzirova, Nisbət Sədrayeva, Məmməd Nəcəfov xanəndənin repertuarından muğam və təsniflər səsləndirdilər.



Sonda ustadın daha bir oğlu Hikmət Abdullayevin ifasında atasının xatirəsinə ithaf olunan "Ata" mahnısına çəkilmiş klip nümayiş etdirildi.

**Lalə Azəri**

# "Şuşa İli"ndən əlamətdar yubileylərə...

## Musiqi Mədəniyyəti Dövlət Muzeyinin layihələri

Dövlət başçısının müvafiq sərəncamı ilə 2022-ci il ölkəmizdə "Şuşa İli" elan olunub. Bu il eyni zamanda musiqi mədəniyyətimizin görkəmli simaları SSRİ Xalq artistləri Fikrət Əmirovun (1922-1984) 100 və maestro Niyazinin (1912-1984) 110 illik yubileyləri ilə də əlamətdardır.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi "Şuşa İli" və əlamətdar yubileylərlə əlaqədar müxtəlif layihələr həyata keçirəcək.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova qəzetimizə bildirdi ki, artıq "Şuşa İli" ilə bağlı layihəyə başlanılıb. "Musiqili Şuşa" adlı layihə üzrə "Hacıbəyovlar: Niyazi" adlı ilk tədbir keçirilib. İl ərzində silsilə tədbirlər – sərgilər, şuşalı və ya əslən Şuşadan olan musiqiçilərin iştirakı ilə görüşlər, yaradıcılıq gecələri və s. təşkil olunacaq.

Direktor həmçinin qeyd etdi ki, muzey tərəfindən "Şuşa musiqiçiləri" adlı sərgi də hazırlanacaq. Bundan başqa, sosial şəbəkələr üzərindən "Musiqili Şuşa" rubrikası ilə təqdimatlar da nəzərdə tutulub.

Dahi bəstəkar Fikrət Əmirovun 100 illiyi münasibətilə nəzərdə tutulan tədbirlər haqqında söz açan Alla Bayramova dedi ki, muzeydə bəstəkarın yubiley gecəsi keçiriləcək. Həmçinin muzeyin kolleksiyaları əsasında "Fikrət Əmirov – 100" başlıqlı sərgi hazırlanacaq. Eyniadlı rubrika ilə virtual sərgi təqdim olunacaq. Əlamətdar yubileylə bağlı "Fikrət Əmirov – 100" adlı kataloq da nəşr olunacaq.



Muzeyin və Fikrət Əmirov adına 6 saylı onbirillik Uşaq incəsənət məktəbinin birgə təşkilatçılığı ilə bu təhsil ocağının 60 illiyinə həsr olunmuş konsertin, gənc rəssamların bəstəkarın 100 illiyinə həsr olunmuş sərgisinin və məktəb tərəfindən hazırlanan kitabın muzeydə təqdimatının keçirilməsi də nəzərdə tutulur.

Alla Bayramova muzeyin maestro Niyazinin 110 illik yubileyinə də öz töhfəsini verəcəyini bildirdi. Bu münasibətlə Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin Mənzil-Muzeyinin ingilis dilində bukleti və Niyazi haqqında kitab işıq üzü görəcək. Eyni zamanda muzeyin kolleksiyası əsasında "Maestro Niyazi – 110" adlı sərgi nümayiş etdiriləcək. "Azərbaycan dirijorluq məktəbi" mövzusunda elmi-praktik konfrans təşkil olunacaq.

**Nurəddin**

# Azərbaycanın elm və mədəniyyət mərkəzi

## Şuşanın 270 illiyinə həsr olunan elmi konfrans

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Elm Tarixi İnstitutu (ETİ) mayın 8-də Şuşa şəhərinin 270 illiyinə həsr olunan "Azərbaycanın elm və mədəniyyət mərkəzi - Şuşa" mövzusunda beynəlxalq elmi konfrans keçirəcək. Beynəlxalq konfrans ölkə başçısının 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında sərəncamına uyğun olaraq təşkil ediləcək.

ETİ-dən bildirilib ki, konfransın keçirilməsində məqsəd şəhərin tarixinin, mədəni irsinin ədəbiyyat, incəsənət, memarlıq, din, fəlsəfə və digər aspektlərdən araşdırılmasıdır.

Konfrans Şuşanın tarixi, Azərbaycan ədəbi irsində yeri, Şuşadakı incəsənət və memarlıq nümunələri, dini-mədəni abidələr, Şuşanın geosiyasi əhəmiyyəti və 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər və digər mövzuları əhatə edəcək.

Konfransa elmi işçilər, doktorant və magistrlər məruzə və məqalələr təqdim edə bilərlər. Məqalələr Azərbaycan, türk, ingilis və ya rus dillərində aprelin 1-dək elmtarixi@gmail.com elektron poçt ünvanına göndərilməlidir.

# İyirmidən çox dilçi yetişdirən elm xadimi

Azərbaycan dilçilik elminin fundamental istiqamətləri üzrə sanballı tədqiqatlar aparmış alimlərimiz arasında da Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru, professor Əlövsət Abdullayevin də adı hörmətlə çəkilir. Görkəmli alim ardıcıl və əhatəli araşdırmaları və qiymətli əsərləri ilə elmi məktəb yaradan tədqiqatçılarımızdan olub.



Əlövsət Zakir oğlu Abdullayev 17 fevral 1920-ci ildə Şamaxı rayonunun Məlikçobanlı kəndində dünyaya göz açıb. İbtidai təhsilini burada alır, Ucar rayonunun Yuxarı Şilyan kənd orta məktəbini bitirir. 1936-cı ildə Şamaxı Pedaqoji Texnikumuna qəbul olunan Əlövsət 1939-cu ildə əla qiymətlərlə təhsilini başa vurur. Bir il kənddə müəllim işlədikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsinə daxil olur.

İkinci kursda oxuyarkən II Dünya müharibəsi başlayır. Təhsilini yarımçıq qoyur və cəbhəyə gedir. Ağır döyüşlərin birində yaralanır. Sağaldıqdan sonra döyüş üçün yararlı bilinmir və orudan tərxis olunur. Doğma kəndinə qayıdır, 1942-1946-cı illərdə Məlikçobanlı kənd orta məktəbində direktor işləyir. Müharibə başa çatdıqdan sonra universitet təhsilini davam etdirir. Ali məktəbdən məzun olduqdan sonra aspiranturaya qəbul edilir, elmi tədqiqata başlayır. 1954-cü ildə "Müasir Azərbaycan dilində xüsusiləşmələr" mövzusunda namizədlik (fəlsəfə doktoru) dissertasiyası, 1963-cü ildə isə "Müasir dilçilikdə tabeli mürəkkəb cümlələr" mövzusunda doktorluq dissertasiyası müdafiə edir.

Ömrünün 40 ilini təhsil aldığı universitetə həsr edən Əlövsət Abdullayev müəllimlikdən professorluğadək yol keçir. O, 1962-1967-ci illərdə Filologiya fakültəsində dekan, 1972-1976-cı illərdə prorektor, 1967-1985-ci illərdə isə Azərbaycan dilçiliyi kafedrasının müdiri vəzifələrində çalışır.

Alim dilçilik elminin müxtəlif sahələrində: sintaksis, morfologiya, orfoepiya, etimologiya, nitq mədəniyyəti ilə bağlı araşdırmalar aparıb. Azərbaycan dilinin aktual məsələləri üzrə 140-dan çox əsərin, o cümlədən 15-dən artıq tədris ədəbiyyatı və monoqrafiyanın müəllifi və ya həmmüəllifi olub. Ə.Abdullayev tərəfindən xüsusiləşmə və əlavə kateqoriyalar, ədatlar, predikativlər, qarışıq tipli mürəkkəb cümlələr, tabeli mürəkkəb cümlələrin tərkib hissələrinin transformasiya hadisəsinə uğraması və digər məsələlər işlənib, ali məktəb proqramlarına daxil edilib.

Araşdırmalarda qeyd edilir ki, görkəmli alimin etimologiya üzrə işləri keçmişə, tarixin yaddaşına əsl səyahət kimi yenilik ruhu, arqumentlərinin əhatəliliyi, əsaslılığı ilə bu sahədə əvvəllər aparılmış tədqiqatlardan fərqlənir.

Mütəxəssislər alimin "Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr" monoqrafiyasını gərgin axtarışların bəhrəsi kimi dəyərləndiriblər. Eyni zamanda əsər ölkə türkoloqları tərəfindən böyük maraqla qarşılanıb. Ə.Abdullayev iki böyük akademik nəşrin – "Azərbaycan dilinin qrammatikası" və "Müasir Azərbaycan dili", eləcə də dördcildlik "Müasir Azərbaycan dili" dərsliyinin müəlliflərindən biri olub. "Müasir Azərbaycan dili" dərsliyinə görə alim 1974-cü ildə Dövlət mükafatına layiq görülüb. 1992-ci ildən isə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb.

Ə.Abdullayevin elmi araşdırmaları dərslik və dərs vəsaitləri kimi nəşr olunub, tələbə və müəllimlərin etibarlı istinad yerinə çevrilib. Bir çox görkəmli alim özünü onun elmi məktəbinin yetirməsi hesab edib.

Tanınmış alim AMEA Nəsimi adına Dilçilik İnstitutu və BDU-nun elmi şuralarının, Azərbaycan Ensiklopediyası redaksiya şurasının, Azərbaycan Dilinin Tətbiqi və Əlifba Komissiyası və digər elmi şuraların üzvü kimi aktiv fəaliyyət göstərib. Həmçinin Bakı Dövlət Universitetinin "Elmi əsərləri"nin "Dil və ədəbiyyat" seriyasının baş redaktoru olub. Kadr hazırlığı sahəsində də diqqətəlayiq işlər görən alimin elmi rəhbərliyi ilə 23 nəfər namizədlik, üç nəfər doktorluq dissertasiyası müdafiə edib.

Ə.Abdullayev tək respublikamızda deyil, onun hüdudlarından kənarda da elmi əsərləri ilə tanınıb. Ümumittifaq və beynəlxalq məclislərdə Azərbaycan dilçilik elmini layiqincə təmsil edib. Müxtəlif illərdə Bakı, Moskva, Sankt-Peterburq, Səmərqənd, Kazan və Tiflis şəhərlərində keçirilən elmi konfranslarda, Berlin, Ankara, İstanbul, Daşkənd şəhərlərində beynəlxalq türkologiya konqreslərində məruzələrlə çıxış edib.

Dilçi alim 1972-ci ildə Türk Dil Qurumunun dəvəti ilə Ankarada I türk dili qurultayında iştirak edir. Orada qurultayın Mahmud Kaşğarlı bölməsini açmaq və birinci iclası idarə etmək şərəfi ona qismət olur. Açılışdakı nitqi və oxuduğu məruzə qurultayın materiallarında çap edilir. O, 1983-cü ildə Türk Dil Qurumunun müxbir üzvü, bir il sonra isə həqiqi üzvü seçilir.

Azərbaycanda dilçilik elmi sahəsində söz sahibi olan, məktəb yaratmış Əməkdar elm xadimi Əlövsət Abdullayev 28 may 1993-cü ildə Bakıda vəfat edib. Vəfatından üç il sonra Türk Dil Qurumu onun "Türk dillərinin tarixi inkişafı məsələləri" adlı kitabını Ankarada nəşr etdirib. Bu monoqrafiyanın elmi əhəmiyyəti nəzərə alınaraq 2007-ci ildə təkrar çap olunub.

**Savalan Fərəcov**

# Böyük nailiyyətlərə aparan yol

## Gənclər üçün Prezident mükafatçılarının qısa uğur hekayələri

Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev fevralın 1-də “2022-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında” sərəncam imzalayıb. Sərəncama əsasən, elm və təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən 10 nəfər gənc Gənclər üçün Prezident mükafatlarına layiq görülüb.


Orxan Hüseynov


Azər Quliyev


Əziz Qasımov


Azər Əliyev


Emiliya Bayramova


Lalə Axundova


Əliqənbər Xəlilli


Səyyarə Gülalıyeva


Coşqun Hidayətov


Suad Muradov

Xatırladaq ki, Gənclər üçün Prezident mükafatı dövlət başçısının 2013-cü il 2 iyul tarixli fərmanı ilə təsis edilib. Fərmana əsasən, Azərbaycan gənclərinin elm, mədəniyyət, o cümlədən ədəbiyyat, incəsənət, eləcə də təhsil, ictimai fəaliyyət və digər sahələrdə nailiyyətlərini təşviq etmək məqsədilə təsis edilən mükafat ildə bir dəfə verilir. Mükafatın məbləği 10 min manatdır.

Yeni mükafata layiq görülmüş gənclərimizi siz də tanıyın.

***

Mükafatçılar sırasında iki yaradıcı gənc var: violonçel ifaçısı Orxan Hüseynov və kinorejissor Azər Quliyev.

Orxan İsa oğlu Hüseynov 1999-cu ildə Bakıda anadan olub. 2016-cı ildə Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbini, 2020-ci ildə isə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) İfaçılıq fakültəsində bakalavr (“Sabah” qrupları) pilləsini bitirib. Hazırda BMA-da eyni istiqamət üzrə (professor Nəzmiyyə Abbaszadənin sinfi) magistr təhsilini davam etdirir.

Təhsil müddətində Leonid Kerbel, Jerome Pernoo, Vladimir Perlin, Christian Poltera, Alen Meunier, Alexandr Chidchavadze, Yuko Miyaqawa, Aleksey Seleznyov, Petr Prause, Klaudio Marini, Pierluigi Rugierre kimi məşhur ifaçılardan ustad dərsləri alıb. Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Kamera Orkestri ilə birlikdə konsertlərdə çıxışlar edib. Həmçinin Paris, Berlin, Moskva, Tbilisi və s. şəhərlərdə konsertlərdə səhnəyə çıxıb. 2016-cı ildə Prezident təqaüdünə layiq görülən musiqiçinin adı Azərbaycanın gənc istedadlarının “Qızıl kitabı”na yazılıb. 2018-ci ildə Gənclər və İdman Nazirliyinin təsis etdiyi “Gənclər mükafatı”nın laureatı olub.

Orxan Hüseynov 2020-ci ildən BMA-nın “Baku Chamber Orchestra” – gənclər kamera orkestrinin, 2021-ci ildən isə “cadeNZa” orkestrinin üzvüdür.

***

Azər Alik oğlu Quliyev 1997-ci ildə Bakıda anadan olub. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) kino tənqidi üzrə bakalavr və magistr (fərqlənmə diplomu) təhsili alıb.

Rejissorun “Pa-Pa” adlı ilk filmi Qazaxıstanda Avrasiya Beynəlxalq Film Festivalında, Gürcüstanın Batumi şəhərində keçirilən Beynəlxalq “Art-House” Film Festivalının əsas müsabiqə proqramında nümayiş olunub. 2021-ci ildə gənc rejissorun “Təngnəfəs” filmi Avropanın nüfuzlu kinoforumlarından sayılan Sarayevo Film Festivalının əsas müsabiqə proqramında dünya premyerasını edib. Film Bişkek şəhərində MDB ölkələrinin “Ümid” kinoforumuna, Minsk şəhərində keçirilən “Listopad” film festivalına, “Moskva premyerası” adlı MDB ölkələri arasında keçirilən film festivalına da dəvət alıb və maraqla qarşılanıb.

Azər Quliyev 2021-ci ildə Mədəniyyət Nazirliyi tərəfindən keçirilən “Böyük Qayıdış” adlı pitçinq layihəsinə “Mozalan” studiyası adından “İkinci planetin qırmızı rəngi” adlı layihə ilə qatılıb və qaliblər sırasında yer alıb.

***

Gənclər siyasəti və gənclərlə iş üzrə mükafat alanlardan Əziz Kamal oğlu Qasımov 1996-cı ildə Naxçıvan şəhərində anadan olub. 2013-cü ildə Şərur Türk Liseyini, 2017-ci ildə Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq ixtisasını, 2019-cu ildə isə həmin universitetin dövlət hüququ ixtisaslaşması üzrə magistr pilləsini fərqlənmə diplomu ilə bitirib.

Təhsil aldığı dövrdə universitetin ictimai həyatında fəal iştirak edib, bir çox layihənin rəhbəri, ideya müəllifi, təşkilatçısı olub. 2018-ci ildə Naxçıvan MR Gənclər və İdman Nazirliyi tərəfindən “İlin fəal gənci” mükafatına layiq görülüb. 2020-ci ildən Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasında müəllim işləyir. Eyni zamanda universitetin Gənclər Təşkilatının sədridir.

***

Azər Ruslan oğlu Əliyev 1993-cü ildə Gəncə şəhərində anadan olub. 2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Beynəlxalq iqtisadi münasibətlər fakültəsini dünya iqtisadiyyatı ixtisası üzrə bitirib. 2012–2013-cü illərdə Polşa və Moldovada (hər birində iki ay) beynəlxalq təcrübə proqramlarında təlimçi və təcrübəçi olaraq fəaliyyət göstərib. 2017-ci ildə “Gələcəyə Körpü” Gənclər İctimai Birliyində könüllülər üzrə koordinator işləyib. 2018–2019-cu illərdə Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasında (NAYORA) proqram koordinatoru, daha sonra isə yerli layihələr üzrə katib olaraq çalışıb. 2020-ci ildən etibarən isə NAYORA-nın sədridir.

***

İctimai və sosialyönümlü fəaliyyət üzrə Gənclər mükafatına Emiliya Polad qızı Bayramova layiq görülüb. O, 1998-ci ildə Bakıda anadan olub. UNEC-də beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alıb. 2016-cı ildə Bakıda 1 saylı “ASAN Xidmət” Mərkəzində könüllü olaraq əmək fəaliyyətinə başlayıb. Daha sonra “ASAN Könüllüləri” Təşkilatında Beynəlxalq əlaqələr və təşkilatlarla iş departamentində fəaliyyət göstərib. 2018-ci ildə Avropada təcrübə proqramının qalibi olaraq Avropa Parlamentində təcrübə keçib. 2019-cu ildə Türkiyə Gənclər və İdman Nazirliyi və Türk Şurasının (hazırda Türk Dövlətləri Təşkilatı) İstanbulda təşkil etdiyi III Gənclər Festivalının iştirakçısı olub.

Emiliya Bayramova hazırda “ASAN Könüllüləri” Təşkilatının sədri, eyni zamanda Azərbaycan Könüllü Təşkilatları İttifaqının baş katibi kimi fəaliyyət göstərir.

***

Elm və təhsil üzrə bu mükafata AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun (MBBİ) kiçik elmi işçisi Lalə Əhməd qızı Axundova layiq görülüb.

1993-cü ildə Bakıda anadan olan Lalə Axundova 2014-cü ildə Bakı Dövlət Universitetinin Biologiya fakültəsini genetika ixtisası üzrə bitirib. 2015-ci ildə Hollandiyanın Wageningen Universitetinin tibbi biologiya ixtisası üzrə magistr proqramına, 2018-ci ildə isə AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun doktoranturasına qəbul olunub. 2020-ci ildə Prezident yanında Elmin İnkişafı Fondunun elan etdiyi gənc alim və tədqiqatçıların 5-ci qrant müsabiqəsinə təqdim olunan “Xərçəng kök hüceyrələrinin mədəaltı vəzi xərçəngində rolunun araşdırılması və yeni müalicə üsulunun işlənməsi” adlı qrant layihəsində icraçı kimi iştirak edib. 2021-ci ildə MBBİ-nin yaradılmasının 5 illiyi münasibətilə 30 yaşa kimi gənc alim və mütəxəssislər arasında keçirilən müsabiqədə I yerə layiq görülüb.

***

Əliqənbər Yadigar oğlu Xəlilli elm və təhsil sahəsi üzrə mükafata layiq görülüb. Hazırda Amerikanın “TopTal” şirkətində süni intellekt üzrə aparıcı mühəndis olaraq fəaliyyətini davam etdirir. Əliqənbər 6 iyul 1994-cü ildə Neftçala rayonu Xıllı qəsəbəsində anadan olub. 2011- 2015-ci illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kompüter mühəndisliyi ixtisası üzrə təhsil alıb. 2016-cı ildən etibarən dünyaca məşhur kompüter elmləri bloqlarında (Geeks for Geeks, Codeforces, MİT Technology Review və s.) faydalı kontentin yaradılması ilə məşğuldur. 2017-2021-ci illərdə “Azercell Telecom” şirkətində proqramçı mühəndis, məhsul və servislərin idarəolunması qrupunun texniki koordinatoru və həmin qrupun rəhbəri vəzifəsində çalışıb. 2020-ci ildə Vətən müharibəsi dövründə “Azercell Telecom” şirkətində məhsul və servislərin idarəolunması qrupunun rəhbəri olaraq 5 milyondan çox abunəçiyə telekommunikasiya xidmətlərinin fasiləsiz və keyfiyyətli təmin edilməsində aktiv rolu olub.

***

İctimai və sosialyönümlü fəaliyyət sahəsi üzrə mükafata layiq görülən Səyyarə Müşfiq qızı Gülalıyeva Prezident yanında Dövlət İdarəçilik Akademiyasının məzunudur. Hazırda Sapienza Roma Universitetində (İtaliya) beynəlxalq inkişaf və kooperasiya ixtisası üzrə magistr təhsili alan Səyyarə eyni zamanda Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyində mütəxəssis vəzifəsində işləyir.

Bir müddət könüllülük fəaliyyəti göstərib, müxtəlif inkişaf və təcrübə proqramlarında, təlim və seminarlarda, regionlarda həyata keçirilən sosial və tibbi aksiyalarda, layihələrdə, beynəlxalq layihələrdə fəal iştirak edib. Səyyarə Gülalıyeva 2019-cu ildə Rusiyanın Soçi şəhərində dünyanın 80-dən çox ölkəsindən 5000 gənc könüllünü əhatə edən Dünya Könüllü Forumunun da iştirakçısı olub.

***

Gənclər mükafatına layiq görülənlər arasında 44 günlük Vətən müharibəsinin iştirakçısı da var: Coşqun Hikmət oğlu Hidayətov. Gənclərin İnkişaf və Karyera Mərkəzi Abşeron nümayəndəliyinin direktoru olan Coşqun Sumqayıt Dövlət Universitetinin məzunudur.

C.Hidayətov mükafata layiq görülməsi ilə bağlı fikirlərini bölüşərkən deyib: “İlk dəfə “Cəbrayılın azad olunmasına görə” medalı ilə təltif edilmişdim. Bizim missiyamız təkcə Vətən müharibəsində iştirakla yekunlaşmır. Bundan sonra Qarabağın dirçəldilməsi, həmçinin Azərbaycan gənclərinin bilik və bacarıqlarının daha da artırılması, düşmənlə informasiya cəbhəsində daha istiqamətli mübarizə aparmaq üçün işlərimiz davam edəcək... Hər kəs fəaliyyət göstərdiyi sahədə işini düzgün icra edirsə, o, Vətənə xidmət edir. Əldə etdiyim uğurların sirri məhz Vətənə sevgidir. Vətən üçün göstərilən xidmətlər, bu gün də olmasa, mütləq sabah dəyərləndirilir”.

***

Suad Rəşad oğlu Muradov innovasiya və sahibkarlıq sahəsi üzrə mükafata layiq görülüb. Suad ADA Universitetini beynəlxalq münasibətlər ixtisası üzrə bitirib. Hazırda ABŞ-ın Duke Kunshan Universitetində ətraf mühit siyasəti üzrə magistr təhsili alır. Bir neçə beynəlxalq proqramın iştirakçısı olub. Həmçinin Azərbaycanda Amerika Ticarət Palatasında təcrübə keçən Suad ünsiyyət, bacarıqların artırılması, akademik yazılar, münaqişələrin idarə edilməsi, satışın təşviqi və məhsulun rebrendinqi kimi sahələrdə çoxlu təcrübə qazanıb. İqlim dəyişikliyi və davamlı istehlak haqqında məlumatlılığın artırılması ilə bağlı tədbirlərdə fəal iştirak edir.

Mükafata layiq görülən bütün gənclərimizi təbrik edir, onlara gələcək işlərində uğurlar arzulayırıq.

**Nurəddin Məmmədli**
**Lalə Azəri**

***

## Xatirə təqvimi — 9–11 fevral

### Azərbaycan

**9 fevral 1909** – Əməkdar artist, müğənni Cahan Rza qızı Talışinskaya (1909 – 1.3.1967) Lənkəranda anadan olub. Musiqili Komediya Teatrında işləyib.

**9 fevral 1924** – Xalq rəssamı, heykəltəraş Mirələsgər Mirəsədulla oğlu Mirqasımov (1924 – 9.11.2003) Bakıda anadan olub. Cəlil Məmmədquluzadənin (Naxçıvan), Cəfər Cabbarlının (Bakı) monumental abidələrinin müəllifidir.

**9 fevral 1925** – Əməkdar artist, müğənni Rəhilə Mirələsgər qızı Həsənova (1925 – 28.2.2004) anadan olub.

**9 fevral 1935** – Xalq rəssamı Cabbar Ağadadaş oğlu Qasımov (1935-2006) Bakıda doğulub. Bədii portretlər, plakatlar çəkib. Rəssamlar İttifaqında plakat bölməsinin rəhbəri olub.

**9 fevral 1936** – Əməkdar incəsənət xadimi, bəstəkar Məmməd Mehdi oğlu Quliyev (1936-2001) Göyçayda anadan olub. “Aldanmış kəvakib” satirik operasının müəllifidir.

**9 fevral 1937** – Kinorejissor Ramiz Paşa oğlu Əsgərov (1937 – 27.7.1967) anadan olub. “Mən ki gözəl deyildim” filminin rejissorlarından biridir, filmin çəkilişi zamanı həlak olub.

**9 fevral 1946** – Əməkdar artist Əsgər Məmmədoğlu (1946 – 21.12.2015) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, filmlərdə, televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**10 fevral 1918** – Yazıçı Cəmşid Cabbar oğlu Əmirov (1918 - 29.12.1982) Naxçıvan şəhərində anadan olub. Detektiv əsərlərin müəllifidir: “Brilyant məsələsi”, “Sahil əməliyyatı” (əsər əsasında “İstintaq davam edir” filmi çəkilib), “Qara “Volqa” və s.

**10 fevral 1927** – Ədəbiyyatşünas, Əməkdar elm xadimi Cahangir Vahid oğlu Qəhrəmanov (1927-1995) Qəbələdə doğulub.

**10 fevral 1928** – Əməkdar artist, vokalçı Cavanşir Qafarağa oğlu Qafarov (1928-1994) Gədəbəydə anadan olub. Opera və Balet Teatrında çalışıb.

**10 fevral 1931** – Tanınmış müğənni Anatollu Mirzə Heydər oğlu Qəniyev (1931 – 1.10.1985) Neftçala rayonunda doğulub. Azərbaycan Dövlət Filarmoniyasının solisti olub.

**10 fevral 2021** – Əməkdar artist, aktyor Əlican Süleyman oğlu Əzizov (13.2.1952 – 2021) vəfat edib.

**11 fevral 1914** – Xalq artisti Rəmziyyə Osman qızı Veysəlova (1914 – 23.8.1993) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrının aktrisası olub.

**11 fevral 1920** – Ədəbiyyatşünas, AMEA-nın müxbir üzvü Əziz Mirfeyzulla oğlu Mirəhmədov (1920-2003) Bakıda anadan olub.

**11 fevral 1929** – Tarixçi alim, Əməkdar elm xadimi, akademik Tofiq Qasım oğlu Köçərli (1929 – 31.10.2007) anadan olub.

**11 fevral 1930** – Mədəniyyət xadimi, Prezident təqaüdçüsü Gülara Cəfər qızı Cabbarlı (1930-2018) Bakıda anadan olub. C.Cabbarlının Bakıdakı ev-muzeyinin direktoru işləyib.

**11 fevral 1950** – Tanınmış pianoçu, bəstəkar Cahangir Mürsəl oğlu Qarayev (1950 – 15.1.2013) Bakıda anadan olub. “Fortepiano sonatası”, “Anlar və impulslar”, “Neqativlər” fortepiano pyesləri və s. əsərlərin müəllifidir. Bakı Musiqi Akademiyasında dərs deyib.

**11 fevral 1981** – Xalq artisti, görkəmli aktyor Möhsün Sənani (Möhsün Sadıq oğlu Cəfərov; 19.6.1900 – 1981) vəfat edib. 1921-ci ildən Azərbaycan Dövlət Akademik Dram Teatrında çalışıb. “Fətəli xan”, “O olmasın, bu olsun”, “Sehrli xalat”, “Dağlarda döyüş” və s. filmlərdə çəkilib.

**11 fevral 2012** – Xalq artisti, tanınmış bəstəkar Elza İmaməddin qızı İbrahimova (10.1.1938 – 2012) vəfat edib. “Yanan laylalar” operasının (libretto – Ramiz Heydər), populyar mahnıların, romansların müəllifidir.

### Dünya

**9 fevral 1441** – Böyük özbək şairi və mütəfəkkiri, dövlət xadimi Əlişir Nəvai (Nizaməddin Mir Əlişir oğlu Nəvai; 1441 – 3.1.1501) Heratda doğulub. Nizami Gəncəvinin “Xəmsə”sindən təsirlənərək eyniadlı əsərlər toplusu (beşlik) yaradıb.

**9 fevral 1874** – Alman əsilli rus rejissoru, aktyor, teatr xadimi Vsevolod Meyerhold (Karl Kasimir Theodor Meyergold; 1874-1940) anadan olub.

**9 fevral 1881** – Böyük rus yazıçısı Fyodor Mixayloviç Dostoyevski (11.11.1821 – 1881) vəfat edib. “Alçaldılmış və təhqir olunmuşlar”, “Cinayət və cəza”, “İdiot”, “Şeytanlar”, “Yeniyetmə”, “Karamazov qardaşları” və s. romanların müəllifidir.

**10 fevral 1890** – Rus şairi və yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1958) laureatı Boris Leonidoviç Pasternak (1890-1960) anadan olub.

**10 fevral 1898** – Alman dramaturqu, rejissor və teatr nəzəriyyəçisi Bertold Brext (Eugen Berthold Friedrich Brecht; 1898-1956) anadan olub.

**11 fevral 1894** - Rus yazıçısı, uşaqlar üçün populyar hekayə və nağılların müəllifi Vitali Valentinoviç Bianki (1894-1959) anadan olub.

**11 fevral 1900** – Alman filosofu Hans-Georq Qadamer (Hans-Georg Gadamer; 1900-2002) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

## Tusinin “İqtibasın əsasları”na həsr olunmuş dəyirmi masa

AMEA Mərkəzi Elmi Kitabxanada (MEK) böyük Azərbaycan mütəfəkkiri, riyaziyyatçı və astronom Nəsirəddin Tusinin yaradıcılığına həsr olunmuş dəyirmi masa keçirilib.

AMEA-dan verilən məlumata görə, tədbirdə əvvəlcə Riyaziyyat və Mexanika İnstitutunun əməkdaşı, riyaziyyat üzrə fəlsəfə doktoru Əli Babayev Nəsirəddin Tusinin “Əsasül-iqtibas” (“İqtibasın əsasları”) əsəri haqqında danışıb. Bildirib ki, Tusinin fars dilində qələmə aldığı “Əsasül-iqtibas” əsəri məntiq elmi üzrə yazılmış ən mükəmməl kitablardan hesab olunur.

Diqqətə çatdırılıb ki, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda Azərbaycan riyazi irsinin tədqiqi şöbəsi fəaliyyətə başlayandan sonra Tusinin bir neçə əsəri dilimizə tərcümə edilib. Bu kitablar riyaziyyat, astronomiya, məntiq və digər elmlərə aid olduğu üçün fars və ərəb dilləri üzrə tərcüməçilərlə yanaşı mütəxəssislərin də köməyindən istifadə edilib.

Əli Babayev qeyd edib ki, Nəsirəddin Tusi kimi dahi şəxsiyyətin irisini araşdırmaq çətin olsa da, qürurvericidir.

MEK-in baş direktoru, professor Məmməd Əliyev Azərbaycanın hər zaman ensiklopedik biliyə malik tarixi şəxsiyyətlər yetişdirdiyi deyib, N.Tusinin bu sırada xüsusi yerə malik olduğunu bildirib. O, “Əsasül-iqtibas” əsərinin gələcək nəsillərə çatdırılmasının vacibliyinə toxunaraq bu istiqamətdə aparılan araşdırmaların böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Sumqayıt Dövlət Universitetinin baş müəllimi Əli Rzazadə Qərb və Şərqin N.Tusi yaradıcılığına olan münasibətindəki fərqlərdən bəhs edib. O, Qərb tədqiqatçılarının Tusini yanlış olaraq “ateist” kimi təqdim etdiyini bildirib. Qeyd edib ki, böyük mütəfəkkir əsərlərində təkamül dedikdə insanın mənəvi təkamülünü nəzərdə tutub, hər zaman mənəvi dəyərlərə sadiq olub.

AMEA Rəyasət Heyəti Aparatı Təhsil şöbəsinin müdiri dosent Əlləddin Məlikov “Əsasül-iqtibas” əsəri haqqında bəzi qeydlərini təqdim edərək dahi alimin elmdə ərsəyə gətirdiyi yenilikləri aşkara çıxarmağın vacibliyindən danışıb. Bildirib ki, Tusinin məntiqə dair yazdığı 5 əsas əsərindən biri olan “Əsasül-iqtibas” Aristotel məntiqini özündə əks etdirən ən sanballı kitabdır və dünyada riyazi məntiq əsərləri sırasında xüsusi yerə malikdir.

# "Şuşa İli"nin "Qarabağnamə"si

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda "Şuşa İli" çərçivəsində "Qarabağnamə" filminin və Xalq rəssamı Arif Hüseynovun rəsm əsərlərindən ibarət sərginin təqdimatı olub. Tədbirdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda təmsil olunan ölkələrin səfirləri, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Fonddan bildirilib ki, filmdə görkəmli qrafika ustası Arif Hüseynovun Qarabağın memarlıq abidələri, tarixi şəxsiyyətləri, eləcə də 2020-ci ilin Vətən müharibəsində Zəfərə aid çəkdiyi əsərlər, eyni zamanda bununla bağlı məlumatlar əksini tapıb.

Fondun prezidenti Günay Əfəndiyeva 2022-ci ilin dövlət başçısı İlham Əliyev tərəfindən "Şuşa İli" elan olunmasının tarixi əhəmiyyətini vurğulayaraq təşkilatın bu ildə ilk tədbirinin də Qarabağa həsr etdiyini deyib. Bildirib ki, Şuşa öz əsrarəngiz təbiəti, gözəlliyi, zəngin mədəniyyəti, milli-mənəvi dəyərləri ilə bu ilə xüsusi rəng qatacaq.

Qarabağ Zəfərini həm Azərbaycanın, həm də Türk dünyasının yeni tarixinin ən parlaq səhifələrindən biri kimi qiymətləndirən Günay Əfəndiyeva Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun "Şuşa İli"nə öz töhfəsini verəcəyini vurğulayıb. Diqqətə çatdırılıb ki, film Xalq rəssamı Arif Hüseynovun Qarabağa həsr olunmuş 45 əsərini əhatə edir: "Əvvəlcə bu əsərlər Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə nəşr olunan "Qarabağnamə – tarixin səhifələri" adlı kitaba daxil edildi. Bundan sonra Arif müəllimin fikirləri də lentə alınaraq film şəklində hazırlandı...".



"Qarabağnamə" sənədli filminin nümayişindən sonra çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov "Qarabağnamə – tarixin səhifələri" kitab-albomundan sonra belə bir filmin hazırlanmasına görə Günay Əfəndiyevaya təşəkkür edib. Qeyd edib ki, bu nəşr xaricdə yaşayan soydaşlarımız üçün də töhfədir. "Çalışırıq ki, soydaşlarımız yaşadıqları ölkələrdə Azərbaycan mədəniyyətini təbliğ etsinlər. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu gün dünyada 14 Azərbaycan evi təsis etmişik. Azərbaycan evlərinə artıq bu kitablar çatdırılıb...".

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun həyata keçirdiyi işləri təqdirlə qeyd edərək filmdən çox



təsirləndiyini deyib: "Filmdə Qarabağın zənginliyi bizə çox gözəl təqdim olundu. Gələcəkdə torpaqları azad edən qəhrəmanların övladları, nəvələri bu ərazilərin kimə aid olduğunu göstərəcəklər...".

Əməkdar incəsənət xadimi Aydın Kazımzadə, Əməkdar jurnalist Etibar Babayev, "Qarabağnamə" filminin rejissoru Elnurə Kazımova işğaldan azad olunan Azərbaycan torpaqlarına həsr edilən ekran əsəri barədə fikirlərini bölüşüblər.

Xalq rəssamı Arif Hüseynov tədbirin ərsəyə gəlməsində göstərdiyi dəstəyə görə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fonduna minnətdarlığını bildirib. O, çəkdiyi rəsm əsərləri ilə Qarabağın tarixini, milli mədəni irsini bütün dünyada tanıtmağa çalışdığını deyib, bu rəsmlərin təqdimatının Qarabağda da keçirilməsini arzuladığını vurğulayıb.

Daha sonra qonaqlar muğam sədaları altında Arif Hüseynovun rəsm sərgisi ilə tanış olublar.

# "İldırımlı yollarla" "Avropanın Mədəniyyət Paytaxtı"nda səslənib

Serbiyanın Novi Sad şəhərinin 2022-ci il "Avropanın Mədəniyyət Paytaxtı" seçilməsi münasibətilə hazırlanan beynəlxalq mədəni layihənin təqdimatı keçirilib. Bununla əlaqədar ölkənin aparıcı musiqi kollektivi olan Novi Sad Dövlət Orkestri – "Voyvodanski" simfonik orkestri ilə "Best of Novi Sad" layihəsinin ilk konserti gerçəkləşib.

Təqdimat gecəsinə azərbaycanlı dirijor – Akademik Dövlət Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri, beynəlxalq müsabiqələr laureatı, Bakı Musiqi Akademiyasının dosenti Əyyub Quliyev dəvət olunub. Tədbirə Azərbaycanın Serbiyadakı Səfirliyi də dəstək verib.



Beynəlxalq əhəmiyyətli layihənin Azərbaycanın dahi bəstəkarı Qara Qarayevin musiqisi ilə açılması gecəyə xüsusi rəng qatıb. Proqramın açılışında Qara Qarayevin "İldırımlı yollarla" baletindən parçaların azərbaycanlı dirijorun idarə etdiyi Serbiya orkestri tərəfindən ifası böyük maraqla qarşılanıb.

Sonra proqramda Qara Qarayevin müəllimi – böyük bəstəkar Dmitri Şostakoviçin violonçel və orkestr üçün 2-ci konserti Serbiyanın istedadlı violonçel ifaçısı, beynəlxalq müsabiqələr laureatı İrena Yosifoski tərəfindən ifa edilib. Konsertin ikinci bölümündə tanınmış Avstriya bəstəkarı Tristan Şultsun, Pyotr Çaykovskinin musiqiləri səslənib.

# San-Remo festivalının qalibi "Mahmood&Blanco" olub

İtaliyada keçirilən 72-ci San-Remo musiqi festivalının qalibi "Mahmood&Blanco" duet-qrupu olub.



Mahnı müsabiqəsində 25 iştirakçı yarışıb. İlk üçlükdə həmçinin Elisa və Morandi kimi gənc musiqiçilər qərarlaşıb.

1-5 fevral tarixində "Ariston" teatrının səhnəsində keçirilən festival "RAİ" telekanalı vasitəsilə canlı yayımlanıb və rekord sayda gündəlik izləyicisi (11 milyon) olub.

Qeyd edək ki, San-Remo festivalı milli səviyyədə dünyanın ən uzunmüddətli televiziya musiqi yarışmasıdır. Ənənəvi olaraq bu yarışmanın qalibi İtaliyanı "Eurovision" mahnı müsabiqəsində təmsil edir.

# Dirijor pultu və fortepiano arxasında

## Azərbaycanlı musiqiçinin İstanbulda konserti

Azərbaycanlı pianoçu, beynəlxalq müsabiqələr laureatı, dirijor və bəstəkar Abuzər Manafzadə İstanbulun Cemal Reşit Rey Salonunda möhtəşəm konsert proqramı ilə çıxış edib.



Konsertin ilk əsəri olan Pyotr Çaykovskinin simli orkestr üçün "Serenada"sına dirijorluq edən A.Manafzadə daha sonra piano arxasına keçərək Vaqif Mustafazadənin "Piano konserti", Tofiq Quliyevin "Qaytağı" və Volfqanq Amadey Motsart-Arkadi Volodosun "Türk marşı" əsərlərini eyni anda pianoda çalaraq həm də dirijorluğunu edib.

Konsertin sonunda "Xocalıya" adlı əsərini orkestr ilə birlikdə ifa edən A.Manafzadə dinləyicilər tərəfindən böyük coşqu ilə qarşılanıb.

Qeyd edək ki, Azərbaycanın Əməkdar artisti İslam Manafovun oğlu olan Abuzər Manafzadə Herbert von Karajan, Zubin Mehta Claudio Abbado kimi böyük dirijorları yetişdirən Vyana Musiqi və Səhnə Sənətləri Universitetinin Dirijorluq fakültəsinin ilk azərbaycanlı tələbəsidir. Bu ilin iyununda Vyana Radio Simfonik Orkestrinə dirijorluq edərək bu ali təhsil müəssisəsindən məzun olacaq. Cemal Reşit Rey Salonunda konsert onun Türkiyədə dirijor kimi ilk çıxışıdır.

# "Manas" teatrı tamaşaçıları dəvət edir...



Qırğızıstanın Nazirlər Kabineti "Manas" Dövlət Teatrının yaradılması haqqında sərəncam verib. Mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Azmat Jamankulov bu barədə mətbuat konfransında məlumat verib.

Nazirin dediyinə görə, "Manas" eposunun qorunması və təbliği, manasşünaslıq elminin inkişafı, eləcə də eposun əsas daşıyıcıları olan manasçıları (dastan söyləyənləri) dəstəkləmək məqsədilə belə bir sərəncam verilib. Jamankulov artıq bu il teatr tərəfindən "Manas" eposunun yeni səhnə quruluşunun tamaşaçılara təqdim ediləcəyini bildirib.

Xatırladaq ki, bir müddət əvvəl Qırğızıstan Prezidenti Sadır Japarov müvafiq nazirliyə incəsənətin qorunması və inkişafı məqsədilə "Manas", həmçinin digər dastan və eposların geniş təbliği üçün şərait yaratmağı tövsiyə etmişdi.

**Gülcahan**

HİND KİNOSUNUN SƏSİ

# Vəfatı ilə bağlı Hindistanda matəm elan olunub

Hind kinosunun səsi kimi məşhurlaşan bəstəkar, müğənni, aktrisa Lata Manqeşkar fevralın 6-da, 92 yaşında vəfat edib. Bir qədər əvvəl koronavirusa yoluxduğu bildirilən sənətçi Mumbay şəhərində klinikaların birində müalicə alırdı.



Manqeşkar Bollivudun "qızıl dövrü" adlanan 1950-1970-ci illərin simvollarından hesab olunur. Ölkədə "Hindistan bülbülü" və "Melodiya kraliçası" adlandırılan Manqeşkar 30-dan çox filmdə hind dilində, həmçinin marati və benqal dillərində mahnılar oxuyub. O, çoxsaylı kino mükafatlarının qalibidir.

Lata Manqeşkarın səsi "Avara" (1951), "Cənab 420" (1955), "Bobbi" (1973), "Qisas və qanun" (1975) kimi məşhur filmlərdə səslənib.

Hindistan hökuməti ölkənin əfsanəvi müğənnisi Lata Manqeşkarın xatirəsinə ikigünlük milli matəm elan edib.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 297 il əvvəl...

**11 fevral 1725-ci ildə** Rusiya Xarici İşlər Kollegiyası işğal olunmuş Xəzərətrafı ərazilərdə erməni əhalisinin yerləşdirilməsi barədə fərman verib. Bu, Rusiyanın ermənilər vasitəsilə Cənubi Qafqazda möhkəmlənmək siyasətinin ilk addımı idi. Üç gün əvvəl ölən çar I Pyotr sələflərinə bunu vəsiyyət etmişdi.

### 259 il əvvəl...

**10 fevral 1763-cü ildə** Britaniya, Portuqaliya, Fransa və İspaniyanın iştirak etdiyi "Yeddi illik müharibə" (1756-1763) başa çatıb. Paris sülh müqaviləsinə əsasən, Fransa Kanada üzərində idarəçiliyi Britaniyaya, Kubanı isə İspaniyaya təhvil verməli oldu. Öz növbəsində Britaniya Filippini İspaniyaya verdi, əvəzində Floridanı (ABŞ-ın gələcək ştatı) əldə etdi.

### 227 il əvvəl...

**9 fevral 1795-ci ildə** Rusiya çarı III Pyotrun fərmanı ilə Rusiya-Türkiyə müharibəsi nəticəsində Qara dəniz sahilində ələ keçirilmiş Hacıbəy limanının adı dəyişdirilərək Odessa qoyulub.

### 204 il əvvəl...

**11 fevral 1818-ci ildə** İspaniyanın müstəmləkəsi olan Çili müstəqilliyini elan edib.

### 194 il əvvəl...



**10 fevral 1828-ci ildə** Rusiya ilə İran arasında müharibənin (1826-1828) yekunlarına dair Türkmənçay müqaviləsi bağlanıb. Təbriz yaxınlığındakı Türkmənçay kəndində Rusiya tərəfdən general İvan Paskeviç, İran tərəfdən şahzadə Abbas Mirzənin imzaladığı müqaviləyə əsasən, Azərbaycanın İrəvan və Naxçıvan xanlıqları Rusiyaya birləşdirilib. Azərbaycan torpaqlarının Rusiya və İran arasında Araz çayı boyunca bölüşdürülməsi başa çatıb. Bundan öncə Gülüstan müqaviləsi (12 oktyabr 1813-cü il) ilə Şimali Azərbaycanın digər xanlıqları Rusiyaya birləşdirilmişdi.

### 193 il əvvəl...

**11 fevral 1829-cu ildə** Türkmənçay müqaviləsinin birinci ildönümündə Rusiyanın Tehrandakı səfiri, şair Aleksandr Qriboyedov qətlə yetirilib. Bu hadisədən sonra İran şahı Rusiya ilə münasibətləri sahmanlamaq üçün Peterburqa böyük miqdarda qızıl və daş-qaş göndərdi.

### 98 il əvvəl...

**9 fevral 1924-cü ildə** Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaranıb. Naxçıvanın muxtariyyəti ilk dəfə 1918-ci ilin noyabrında, ermənilərin bölgəyə hücumları zamanı elan olunmuşdu. Həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti bölgəyə kömək etmək imkanında deyildi və Naxçıvanda Araz Türk Cümhuriyyəti yaranmışdı. Bolşeviklərin hakimiyyətə gəlməsindən sonra Türkiyənin dəstəyi ilə (1921-ci ilin Moskva və Qars müqavilələri) bölgənin Azərbaycanın ayrılmaz hissəsi olduğu təsbitləndi. 1923-cü ildə muxtar diyar adlanan Naxçıvan bir il sonra muxtar respublika statusu aldı.

### 63 il əvvəl...



**11 fevral 1959-cu ildə** Türkiyə ilə Yunanıstan arasında Kipr adası ilə bağlı Sürix-London müqavilələri imzalanıb. Daha sonra Britaniyanın (Kiprin faktiki metropoliyası), habelə adanın yunan və türk icmalarının da imzaladığı sazişlərə əsasən, bir il sonra Kiprdə iki icmanın birgə dövləti yarandı. Amma ideya az sonra iflasa uğradı və adada hərbi münaqişə başlandı.

### 43 il əvvəl...

**11 fevral 1979-cu ildə** İranda İslam inqilabı qələbə çalıb. İran İslam Cümhuriyyətinin yarandığı elan olunub. Fransadan mühacirətdən İrana qayıdan Ayətullah Xomeyni dövlətin ali rəhbəri olub.

### 30 il əvvəl...

**11 fevral 1992-ci ildə** erməni silahlı qüvvələri Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərini işğal ediblər. 28 il erməni işğalı altında qalan kəndlər İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanan 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyanata uyğun olaraq Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə keçib.

### 24 il əvvəl...

**10 fevral 1998-ci ildə** Azərbaycanda ölüm hökmü ləğv edilib. Prezident Heydər Əliyevin qanunvericilik təşəbbüsü ilə təqdim etdiyi qanun layihəsi Milli Məclisdə qəbul olunub. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələndən sonra ölüm hökmlərinin icrasına moratorium qoyulmuşdu. Azərbaycan müsəlman ölkələri arasında birinci olaraq bu humanist addımı atdı.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymәti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 373
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641